www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 iyun 2018-ci il Çərşənbə № 131 (7020) Qiyməti 60 qəpik

**Xəbər**

## "Dərnəgül" bazarı yandı - sahibkarlara 100 minlərlə ziyan dəydi

yazısı səh.10-da

**Gündəm**

### Türkiyə ordusu Menbicdə



Vaşinqton və Ankara arasında əldə olunmuş Menbic razılaşması əsasında rayon tədricən Türkiyə ordusunun nəzarətinə keçəcək

yazısı səh.8-də

### Müxalifət "qan-qan" deyib, iqtidara dəstək vəd etdi

yazısı səh.3-də

### Büdcə dəyişiklikləri mövcud iqtisadi kursa ziddir - iddia

yazısı səh.4-də

### Rayonlarda taxıl sahələrdə batır - kombayn tapılmır

yazısı səh.5-də

### Sərdar Cəlaloğlundan ona hücum edənlərə sərt cavab

yazısı səh.6-da

### Lombardların yenidən "çiçəklənmə" dövrü başlayır - səbəb

yazısı səh.4-də

### İki aydır boş qalan BŞİH başçısı postu - müəmma

yazısı səh.7-də

### Vyanada OPEK-in iclası başlayır - neftin qiyməti necə olacaq?

yazısı səh.9-da

### Aprel sindromu hər an təkrarlana bilər - güc amili önə çıxır

yazısı səh.11-də

### Gürcüstanın Azərbaycana dönüklüyünün pərdəarxası

yazısı səh.12-də

### Gədəbəy meşələrində gecə qırğınları - reportaj

yazısı səh.13-də

## "Rusiya qılıncı"na qarşı "Amerika qalxanı"?

# İRƏVAN KRİTİK SEÇİMƏ SÜRÜKLƏNİR - QƏRB PAŞİNYANI KÜNCƏ SIXIR

ABŞ və Avropa Ermənistandakı inqilabla bağlı məyus durumda - mühüm gəlişmə; Fransa prezidenti Paşinyanı hələ də təbrik eləməyib - səbəb; **politoloq:** "Ermənistanı yeni qarşıdurmalar gözləyir..."




yazısı səh.9-da

## Pambıq tarlasında kütləvi zəhərlənmə - cinayət işi başlandı

Prezidentin tapşırığı ilə nazir və baş prokurorun müavini İmişliyə getdi; icra başçısı deyib ki, fəhlələr işləyən sahədə hər hansı dərmandan istifadə olunmayıb; deputatlardan vəziyyətlə bağlı narahat açıqlamalar

yazısı səh.5-də



Azər Süleymanov

### Gürcüstan parlamentinin azərbaycanlı deputatından şok açıqlamalar

yazısı səh.3-də



### "AST Telman"ın və qardaşının mühakiməsi başladı - iki qətl

yazısı səh.4-də



Emin Zeynalov

### "GünayBank"da 100 milyon oğurluq qalmaqalı - təfərrüat

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 131 (7020) 20 iyun 2018




## "Qarabağ"ın Çempionlar Liqasındakı ilk rəqibi

**"Çox çətin rəqiblə qarşılaşacağıq". Apasport.az saytının məlumatına görə, bunu "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov klubun facebook səhifəsinə açıqlamasında Çempionlar Liqasının I təsnifat mərhələsinin püşkatmasını dəyərləndirərkən deyib.**

Q.Qurbanov bildirib ki, Sloveniya çempionu "Olimpiya"nı güclü rəqib hesab edir: "Belə rəqiblə qarşılaşmaya pley-off matçı kimi meydana çıxacağıq. Artıq bu gündən rəqibi analiz etməyə başlayacağıq ki, oyuna qədər maksimum hazır olaq. Əlimizdən gələni etməyə çalışacağıq. Bizə ən çətin və gözlənilməz rəqib düşdü".

Qeyd edək ki, ilk oyun iyulun 10-11-də Lyublyanada, cavab görüşü isə bir həftə sonra Bakıda keçiriləcək.

## Volodin Bakıya gəlir

**Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin Azərbaycana iki günlük səfərə gəlir. Bu barədə APA-nın Moskva müxbirinə Rusiya Dövlət Dumasından məlumat verilib. Bildirilib ki, Duma sədri iyunun 24-25-də Azərbaycanda səfərdə olacaq.**

Səfər çərçivəsində Vyaçeslav Volodinin Azərbaycan prezidenti və Milli Məclisin sədri ilə görüşləri nəzərdə tutulub. Görüşlərdə Azərbaycan-Rusiya münasibətləri, iki ölkə arasında parlamentlər səviyyəsində əlaqələrin inkişafı müzakirə olunacaq.

## Ermənistana məxsus PUA məhv edilib

**İyunun 19-u səhər saatlarında cəbhənin Füzuli-Xocavənd istiqamətində mövqelərimiz üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hərbi Hava Qüvvələrinin bölmələri tərəfindən növbəti dəfə məhv edilib.**

Bu barədə "Report"a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.



## Azərbaycandan Gürcüstana qaz ixracı 16,5% artıb

**Cari ilin yanvar-may aylarında Azərbaycandan Gürcüstana 794 min 155,9 kubmetr qaz ixrac edib. APA-nın yerli bürosu Gürcüstanın Milli Statistika İdarəsinin ilkin hesabatına istinadən xəbər verir ki, ixrac olunmuş təbii qazın dəyəri 142 mln. 548,5 min dollar təşkil edib.**

Ötən ilin eyni dövrü ilə müqayisədə Azərbaycandan Gürcüstana qaz ixracı həcm baxımından 112 min 622,6 kubmetr və ya 16,5% çoxdur.

Məbləğ baxımından isə illik nisbətdə təbii qazın ixracı 25 mln. 650,7 min dollar və ya 21,9 % çoxdur.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyinizkifayətdir.

**Telefon: (012) 434 93 01**

# MTN-in qadın generalı apelyasiya şikayətini geri götürüb

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) qadın generalı Natəvan Mirvətova barəsindəki hökmdən verilən apelyasiya şikayətindən imtina edib.**


Natəvan Mirvətova

Bu barədə APA-ya N. Mirvətovanın vəkili Adilə Məmmədova deyib. O bildirib ki, N. Mirvətova barəsindəki hökmdən apelyasiya şikayəti versə də sonradan hüquqlarını müdafiə etdiyi şəxsin istəyi ilə geri götürüb. Vəkil şikayətdən imtinanın səbəbləri barədə danışmayıb.

Bu iş üzrə təqsirləndirilən digər şəxslər Sübahir Qurbanov, Teymur Quliyev, Fizuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev də apelyasiya şikayəti verib. Onlar barələrində bəraət hökmünün çıxarılmasını istəyirlər.

Polkovnik Elşad Əzizov isə şikayət verməyib.

Qeyd edək ki, Sübahir Qurbanov 14 il, Fuzili Əliyev 14 il, Zaur Məmmədov 10 il 6 ay, Natiq Alıyev 10 il 6 ay, Teymur Quliyev 12 il, Anar Şirəliyev 3 il, Eşqin Əliyev 3 il müddətinə azadlıqdan məhrum edilib.

Fərhad Atayev və Elşən Əzizov 3 il sınaq müddəti təyin edilməklə, şərti cəza seçilib və onlar məhkəmə iclas zalından azadlığa buraxılıblar.

Qadın general Natəvan Mirvətova barəsində 5 il sınaq müddəti təyin edilməklə, şərti cəza seçilib.

İttihama əsasən, təqsirləndirilən şəxslər 2004-2015-ci illərdə mütəşəkkil dəstə tərkibində xidməti vəzifələrinin icrası ilə əlaqədar hakimiyyətdən və öz qulluq mövqelərindən sui-istifadə ediblər.

Onlara Cinayət Məcəlləsinin 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), 178.3.1, 178.3.2-ci (dələduzluq mütəşəkkil dəstə tərəfindən külli miqdarda ziyan vurmaqla törədildikdə), 179.3.1, 179.3.2-ci (Mənimsəmə və ya israf etmə mütəşəkkil dəstə tərəfindən külli miqdarda törədildikdə), 181.3.1, 181.3.2-ci (Quldurluq mütəşəkkil dəstə tərəfindən külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə), 182.3.1, 182.3.2-ci (Hədə-qorxu ilə tələb etmə külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə ) və digər maddələri ilə ittihamlar irəli sürülüb.



## Bakıda soyğunçuluğa cəhd edən 2 nəfər tutulub

**Bakıda soyğunçuluğa cəhd edən 2 nəfər saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, iyunun 18-də Nizami RPİ-nin 24-cü Polis Şöbəsinə müraciət edən Bakı şəhər sakini olan iki qadın həmin gün saat 18 radələrində rayon ərazisindəki ayrı-ayrı ünvanlarda naməlum şəxsin zor tətbiq edərək onların içərisində parfümeriya, bijuteriya və sənədləri olan çantalarını almağa çalışdığını, lakin istəyinə nail olmadığda qaçıb aradan çıxdığını bildirib.**

Dərhal başlanan əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğa cəhd etməkdə şübhəli bilinən 2 nəfər "isti izlər"lə polis əməkdaşları tərəfindən saxlanılıblar.

Araşdırmalarla onların Biləsuvar rayon sakini Eyvaz Babayev və Qəbələ rayon sakini Gəncim Allahverdiyev olduqları müəyyən edilib.

Hər iki faktla bağlı Nizami Rayon Polis İdarəsində araşdırma aparılır.



## Göyçayda selin dağıtdığı körpü 3 gündən sonra istifadəyə veriləcək

**İyunun 2-də Göyçay çayına gələn güclü sel nəticəsində dağılan avtomobil körpüsünün bərpası istiqamətində görülən işlər başa çatmaq üzrədir. Selin təsiri nəticəsində uzunluğu 76 metr, eni 11.5 metr olan avtomobil körpüsünün 30 metrlik hissəsi dağılıb, nəticədə Bakı-Şamaxı-Yevlax avtomobil yolunda nəqliyyatın hərəkəti dayanıb, Göyçay çayının şərq hissəsindəki 38 kəndin rayon mərkəzi ilə əlaqəsi kəsilib.**

İyunun 3-dən başlayaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin və "Körpübinatikinti" ASC-nin tikinti briqadası və ağır texnikaları körpünün yenidən bərpası işlərinə başlayıb. Əvvəlcə çayda suyun axın istiqaməti dəyişdirilib, yəni suyun kənardan mərkəzə yönəldilərək məcrasının əvvəlki vəziyyətə qaytarılması üçün tədbirlər görülüb.

Sonra körpünün dağılmış yerində dəmir borular basdırılıb, uzunluğu 36 metr, eni 1 metr, hündürlüyü 5-9 metr olan beton istinad divarı qurulub. Hazırda ərazidə torpaq bərkitmə işləri görülür. Torpaq qatı çay yatağından təxminən 15 metr hündürlüyü olan körpüyədək qaldırılıb. Bu günədək əraziyə təxminən 20 min kubmetr torpaq tökülərək tarazlıq və bərkitmə işləri görülüb. Körpünün bərpası işlərinə 30-dan çox ağır texnika və 50-ə yaxın işçi qüvvəsi cəlb olunub. Tikinti işləri gündüz və gecə saatlarında davam etdirilir. İnşaat işlərinin 3 gün ərzində başa çatdırılması və körpünün istifadəyə verilməsi nəzərdə tutulur.

Qeyd edək ki, körpü dağıldığı üçün iyunun 2-dən bəri sürücülər Göyçay-Ucar-Göyçay avtomobil yolundan istifadə etməklə rayon mərkəzinə gedirlər. Əhalinin Göyçay çayı üzərindən piyada keçidinin təmin olunması üçün şəhərin şimalındakı köhnə asma körpüdə təmir-bərpa işləri aparılıb və orada insanların təhlükəsiz hərəkəti üçün şərait yaradılıb. Çayın hər iki tərəfində sərnişin avtobuslarının həmin asma piyada körpüsünədək gedişi təmin olunur. (APA)



## Dünyada qaçqınların sayı rekord həddə çatıb

**Dünyada qaçqınların sayı 2017-ci ildə rekord həddə - 68,5 milyona çatıb.**

"Report" xəbər verir ki, bu barədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı iyunun 19-da məlumat yayıb.

Bildirilib ki, göstərilən rəqəmin yarısını yeniyetmələr təşkil edir.

Məlumata əsasən, son hesabat dövründə qaçqınların sayı dünya üzrə 3,1 milyon nəfər çoxalıb. Qaçqınların əksəriyyəti - 40 milyonu öz ölkələrinin daxilində yerlərini dəyişənlərdir.

Qaçqınların çoxu Suriya, Əfqanıstan, Cənubi Sudan, Myanma və Somalidəndir. Onların 85 faizi adambaşına düşən gəlirin orta səviyyəsi az olan ölkələrin, xüsusi ilə Livan, Pakistan və Uqanda vətəndaşlarıdır.

## Qusarda ana və 7 yaşlı qızı itkin düşüb

**Qusar rayonunda ana və azyaşlı qızı itkin düşüb.**

Rayonun Xürel kəndində yaşayan Elmar Əskərov Qusar Rayon Polis Şöbəsinə (RPŞ) müraciət edərək, həyat yoldaşı 26.03.1988-ci il təvəllüdlü Qusar mərkəzi rayon xəstəxanasının psixo-nevroloji dispanserində qeydiyyatda olan Əskərova Sveta Arif qızının və 2011-ci il təvəllüdü qızı Əminə Əskərovanın birlikdə yaşadığı evdən çıxaraq itkin düşməsi barədə məlumat verib.

Aparılan ilkin əməliyyat-axtarış tədbirləri nəticəsində ana və azyaşlı qızını tapmaq mümkün olmayıb.

Evdən çıxarkən S.Əskərovanın əynində qara rəngdə şalvar, yaşıl rəngdə uzunqol köynək, qızı Ə. Əskərovanın əynində isə göy rəngdə cins şalvar, qırmızı rəngdə uzunqol köynək və qırmızı rəngli idman ayaqqabısı olub.

## Kürdə 16 yaşlı gənc batıb

**Kür çayında 16 yaşlı gənc batıb. "Report" Fövqəladə Hallar Nazirliyinə (FHN) istinadən xəbər verir ki, iyunun 18-də Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Kür çayının Yevlax şəhəri ərazisindən keçən hissəsində 2002-ci il təvəllüdlü Əlili Ceyhun Eldar oğlunun batması barədə məlumat daxil olub.**

Dünən səhər saatlarından etibarən FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu axtarışlara cəlb olunub. Əlavə məlumat veriləcək.

YENİ MÜSAVAT
N 131 (7020) 20 iyun 2018

**Gürcüstanda son zamanlar ictimai-siyasi vəziyyətin gərginləşdiyi müşahidə olunur. Mitinqlər keçirilir və artıq ötən həftə mitinqçilərin tələbləri qarşısında baş nazir istefa verib. Bu hadisələrlə yanaşı qonşu ölkədə yaşayan azərbaycanlılarla bağlı da xoş olmayan proseslərin başlandığı xəbərləri gəlməkdədir. Gürcüstan prokurorluğu və Daxili İşlər Nazirliyi tərəfindən Marneuli şəhər meri azərbaycanlı Temur Abazov həbs olunub. Onu Elçin Abdullayevə qarşı təhqirə yol verməkdə ittiham edirlər. Zorakılıq tətbiq etmək ittihamı ilə isə Gürcüstan parlamentinin üzvü keçmiş prezident Mixail Saakaşvilinin "Vahid Milliyətçi Hərakat" Partiyasının üzvü, deputat Azər Süleymanova qarşı cinayət işi açılıb.**

# Gürcü parlamentinin azərbaycanlı deputatından şok açıqlamalar

## Azər Süleymanov: "Gürcüstanın baş naziri, prezidenti və spikeri bir-birinə düşmən kimi baxır"



**Gürcüstanda baş verənlərlə bağlı Azər Süleymanov "Yeni Müsavat"a açıqlama verib. Azər Süleymanov qeyd etdi ki, Gürcüstan gün-gündən geri gedir, ölkə 1990-cı illərə qayıdır:** "Hakimiyyətdəki Gürcü Arzusu Partiyası, hökumətdəkilər bir-biri ilə yola gedə bilmirlər. Bir dövlətdəki prezident, baş nazir və parlamentin sədri bir-birinə düşmən münasibətdədir, orada irəliləyiş mümkün deyil, orada geriləmə, fiasko qaçılmazdır. Mən şahidiyəm ki, Gürcüstanın baş naziri, prezidenti və spikeri bir-birinə düşmən kimi yanaşırlar. Bu üç şəxs bir-biri ilə yol getmirlər, tədbirlərdə bir-birilə yanaşı belə oturmurlar. Problemlərdən biri bu vəziyyətdən qaynaqlanır. Gürcüstanı bu problemdən xilas etmək lazımdır.

Mixail Saakaşvilinin dövründə güclü və monolit komanda var idi. Hakimiyyət daxilində bir-birinə düşmən münasibət yox idi. Bu gün isə nazirlər bir-biri ilə yola getmirlər. Ölkədə çox ciddi ictimai gərginlik hökm sürür. Bütün savadlı insanlar kənarda qalıb, hər vəzifəli şəxs öz qohum-əqrəbasını yanına işə cəlb edir. Kadr məsələsində savada, peşəkarlığa yox, qohumluğa üstünlük verilir. Bir sözlə, Mixail Saakaşvilinin irəli apardığı Gürcüstanı indiki hakimiyyət geriyə aparır. Ölkədə narkomaniya, cinayətkarlıq baş alıb gedir. Mixail Saakaşvili Gürcüstanda rüşvəti kəsmişdi, rüşvət sözü insanların leksikonundan belə çıxmışdı. İndiki hakimiyyət elə bir vəziyyət yaradıb ki, artıq Gürcüstanda rüşvətxorluq tüğyan edir. 4 ildə beş dəfə baş nazir dəyişilib, İvanaşvili hökuməti özünün oyuncağına çevirib. İtirən isə Gürcüstandır.

Belə vəziyyət isə Mixail Saakaşvilinin Gürcüstanda hakimiyyətə gəlişini labüd edir. Artıq xalq Saakaşvili dönəminin xiffəti ilə yaşayır. Yenə də gözlər cənab Saakaşviliyə dikilməkdədir. Mixail Saakaşvilini xalq yenidən hakimiyyətə gətirəcək. Artıq gün-gündən bu bir aksiomaya çevrilməkdədir".

**Deputat onu da bildirdi ki, hər gün Gürcüstanda etiraz aksiyaları keçirilir. Artıq proses gedir:** "Bu prosesdə bizim partiyadan başqa da partiyalar, ictimai təşkilatlar iştirak edir. İnsanlar artıq İvanaşvilinin partiyasının idarəçiliyi altında yaşamaq istəmirlər. Gürcüstan xalqı normal yaşayışı, qanunların hökmran olduğu dövrü 2003-2012-ci illərdə gördülər. Məhz həmin dövrdə yüz minlərlə vətəndaşımız Gürcüstana-evlərinə geri döndülər. Saakaşvili dönəmində Gürcüstan-Azərbaycan münasibətləri dünya ölkələrinin qibtə etdiyi səviyyədə yüksək idi. Mixail Saakaşvilinin Azərbaycana, azərbaycanlılara çox böyük sevgisi var. Onun Azərbaycan prezidenti cənab İlham Əliyevlə şəxsi dostluq münasibətləri də Azərbaycan-Gürcüstan münasibətlərində öz sözünü deyirdi. 2012-ci ildən sonra İvanaşvili komandası Azərbaycanla münasibətlərə xələl gətirən addımlar atmağa başladı. Çox yanlış xətt yürüdüldü və yürüdülməkdədir. Faktiki olaraq, Azərbaycanı fürsət düşən kimi şantaj etmək xətti əsas götürülüb. Gah Ermənistana Abxaziyadan dəmir yolu xəttini açmaqla bağlı, gah Rusiyadan, İrandan qaz almaq məsələsini ortaya atmaqla Azərbaycanı şantaj yolunu seçdilər. Gürcüstan ictimaiyyəti ayağa qalxdı və bu şantajlara qarşı çıxdı.

Son zamanlar isə hökumət Gürcüstanda yaşayan azərbaycanlılara qarşı təzyiqləri artırıb. Saakaşvilinin dövründə 3 minə yaxın Gürcüstan vətəndaşı olan azərbaycanlı ali məktəblərə qəbul olunmuşdu. Bu gün həmin tələbələr işsiz-gücsüz qalıblar. Heç birinə iş verilmir. Vəzifədə iki-üç azərbaycanlı var idi. Hökumət qurğu qurdu və onları vəzifədən çıxarıb həbsə atdılar. Şəxsən mənim özümə cinayət işi açıblar. Məni həbs edib bu şəkildə sıradan çıxarmaq istəyirlər. Mənə deputat mandatını İvanaşvili verməyib ki, İvanaşvili də alsın. Mənə mandatı seçicilərim verib. İvanaşvilinin gücü çatmaz mənim mandatımı əlimdən almağa. Bu işdə mən haqlıyam. Mən heç kimi döyməmişəm və təhqir etməmişəm. Sadəcə, bir nəfərə demişəm ki, nəyə görə sən öz üzvü olduğun Gürcü Arzusu Partiyasının adı ilə yox, bizim partiyanın adından çıxış edərək insanların ailəsini təhqir edirsən, sənin hərəkətin insanlığa yaraşmır. Bu hadisə 15-20 adamın gözü qarşısında olub. İndi mənim üzümə bir cinayətkarı və həmin cinayətkarın bacısı oğlunu durdurublar. Mən sübut eləmişəm ki, heç kimi döyməmişəm, həmçinin sübut eləmişəm ki, bu adam Gürcü Arzusu Partiyasının üzvüdür. Həmin adamın oğlu da dünən televiziyada çıxış edərək dedi ki, mənim atam Gürcü Arzusu Partiyasının üzvüdür, mitinqə gətməsi isə mənim üçün də sirdir. Bütün bunları əslində hər kəs bilir. Sadəcə, qəsdən Azər Süleymanovu ləkələmək və sıradan çıxarmaq istəyirlər".

**A.Süleymanov vurğuladı ki, Mixail Saakavilinin hakimiyyətə gəlməsi Gürcüstanla yanaşı Azərbaycanın da maraqlarına cavab verir. Lakin bu məsələdə Azərbaycanın ona dəstək verməsi mümkün deyil:** "Çünki Gürcüstanla Azərbaycan müstəqil dövlətlərdir və heç bir dövlət bir-birinin daxili işlərinə qarışmır. Azərbaycan sadəcə, Saakaşvilinin hakimiyyətə gəlişini arzulaya bilər. Gürcüstanda yaşayan azərbaycanlılar isə bir vətəndaş olaraq Mixail Saakavilişinin gəlişini istəyirlər. Təvazökarlıqdan uzaq olsa da deyim ki, mən olmasaydım, Mixail Saakaşvilinin parlamentdə fraksiyası yaranmazdı. Məni Saakaşvilinin yanından uzaqlaşdırmaq üçün hər cür təzyiqlər etdilər. Lakin nail ola bilmədilər. Mən ölərəm, ancaq Saakaşviliyə arxa çevirmərəm. Çünki Saakaşvili Gürcüstan xalqına demokratiya verdi, Gürcüstandakı azərbaycanlıların üzərindən "ikinci sort vətəndaşlar" adını götürdü və azərbaycanlılar Gürcüstanın tam hüquqlu vətəndaşları oldular. Dmanisi, Bolnisi, Qardabani boşalmışdı. Saakavşilinin dövründə hamı evinə qayıtdı. Hər bir azərbaycanlı onun vaxtında özünü tam sığortalı vətəndaş hiss edirdi. Bu gün bu hüquqları bizim əlimizdən almaq istəyirlər. Hər kəs bilsin ki, Mixail Saakaşvili tezliklə Gürcüstana gələcək. Gürcüstan sonu qaranlıq yoldan dönəcək".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Müxalifət "qan-qan" deyib iqtidara dəstək vəd etdi

## Müharibə başlarsa...



**Son günlər cəbhə xəttində ciddi aktivlik müşahidə olunmasa da müharibəyə hazırlıq elementləri özünü göstərməkdədir. Ekspertlər Azərbaycan ordusunun lokal əraziləri işğaldan azad etməsi hadisəsini yüksək qiymətləndirirlər. Bildirilir ki, Rusiyanın başının futbol üzrə dünya çempionatına qarışdığı, Ermənistanda gərginliyin davam etdiyi ərəfədə Azərbaycan ordusunun genişmiqyaslı hərbi əməliyyatlara başlaması üçün münbit şərait yaranıb və bundan yararlanmaq lazımdır.**

İqtidar müharibə qərarını verərsə, müxalifət partiyaları bu qərara dəstək verərmi?

Bu sualla bir neçə müxalifət partiyası sədrinə müraciət etdik.

"Yeni Müsavat"a danışan **ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, o, prezidentliyə namizəd olduğu zaman etdiyi çıxışlar zamanı bu məsələyə toxunub: "Demişəm ki, Dağlıq Qarabağın qaytarılmasının tək bir yolu var, o da müharibədir. Yerdə qalan bütün yollar Qarabağın itirilməsi deməkdir. Biz yalnız müharibə yolu ilə Dağlıq Qarabağı qaytara bilərik. Sülh yolları, Minsk Qrupu və digər bu kimi şeylər Qarabağı bizdən alıb, Ermənistana vermək mahiyyəti daşıyır. Ona görə də yeganə yol hərbi və hüquqidir. Hüquqi yola xarici ölkələr-Rusiya, Avropa ölkələri imkan vermir. Siyasi yolla isə problem həll olunan deyil".

**VİP sədri Əli Əliyev də bildirib ki, müharibə başlayarsa, iqtidara dəstək olacaqlar:**

"Ancaq məsələni Dünya Çempionatı ilə əlaqələndirmək hesab edirəm ki, yanlışdır. Çünki 2008-ci ildə baş verən Gürcüstan məsələsi hər kəsə məlumdur. Gürcüstan Pekində keçirilən Olimpiya oyunlarına görə Rusiyanın başının qarışdığını düşünürdü. Ona görə Saakaşvili hücum əməliyyatı hazırlamışdı. Çox böyük çətinliklə bu əməliyyatlar dayandırıldı və Gürcüstan ərazisinin bir hissəsini müvəqqəti də olsa itirdi. Ona görə də ölçüsüz hərəkət etməməliyik. Düşünürəm ki, hələ Rusiya həlledici dərəcədə zəifləməyib. Belə olduğu təqdirdə razılaşdırılmadan genişmiqyaslı əməliyyatların başlanılması ölçülü olmalıdır. Bütün hallarda Dağlıq Qarabağ məsələsinin hərb yolu ilə həll edilməsi qənaətindəyəm. Kimin iqtidarda təmsilindən asılı olmayaraq, Azərbaycan yalnız güc yolu ilə məsələnin həllində iddialı olmalıdır. Belə olarsa, müharibə başlayarsa biz fəaliyyətimizi dondurub, iqtidara əlimizdən gələn dəstəyi verəcəyik".

**Ağ Partiya sədri Tural Abbaslı söyləyib ki, hazırkı vəziyyət Azərbaycan üçün münbit şərait yaradıb:**

"Burada əsas məsələ Azərbaycanın ordusunun, ictimai sferasının, cəmiyyətinin əməliyyatlara hazırlığı daha önəmlidir, nəinki Rusiyanın başının qarışması. Azərbaycan hökuməti və ordusu hərbi əməliyyatlara başlamağa özünü hazır bilirsə, təbii ki, biz də dəstəyik və sona qədər də yanında durarıq. Ümumiyyətlə, belə bir hərbi əməliyyatlar keçirilən dövrdə siyasi partiya və strukturların fəaliyyətlərinin dayandırılmasının tərəfdarıyıq. Çünki müharibə aparan ölkədə siyasi rəqabət olmamalı və müharibədən bunun üçün istifadə edilməməlidir. Odur ki, hökumət sözün həqiqi mənasında Qarabağı azad etmək üçün əməliyyatlara başlasa, müxalifət partiyası kimi onun yanında olub, tam dəstək verərik. Müharibə addımı üçün doğru, soyuq başla hesablamalar aparıb, sonra qərar vermək lazımdır. Yoxsa "belə bir şərait var",- deyib addım atmaq da olmaz. Dəqiq planlaşdırma vacibdir".

❑ **Əli RİS, "Yeni Müsavat"**

**2013-2014-cü illərə qədər lombardların sayında azalma qeydə alınıb. Ona görə ki, banklar aktiv şəkildə kredit verirdi və kredit şərtləri də yumşaq idi deyə, hamı banklara üz tuturdu. Son dövr lombardlar yenidən "çiçəklənməyə" başlayıb. Səbəblərdən danışan iqtisadçı ekspert Samir Əliyev deyir ki, Mərkəzi Bank kredit şərtlərini ağırlaşdırandan sonra xeyli insan bank kreditlərindən kənarda qalıb:**




# Lombardların yenidən "çiçəklənmə" dövrü başlayır - səbəb

## İqtisadçı ekspert: "Lombardların çatışmayan cəhətləri odur ki..."

"2014-cü ilin avqustunda neftin qiymətinin düşməsi, xüsusən də devalvasiyadan sonra insanların banklara kredit borclarının yaranması kredit şərtlərinin ağırlaşmasına gətirib çıxartdı. Banklardan kredit ala bilməyən insanlar yenidən lombardlara üz tutmağa başladılar. Lombardlarla bank kreditlərini müqayisə etsək, hər birinin öz üstünlüyü və çatışmazlığı var. Bank kreditlərinin üstünlüyü ilk növbədə ondan ibarətdir ki, faiz dərəcəsi lombardlarla müqayisədə aşağı olur. İkinci əsas üstünlük verilən məbləğin yüksək olmasıdır. Qoyulan girovun müqabilində götürülən kreditin məbləği nisbətən yüksək olur. Eyni girovla bankdan daha çox kredit götürmək olar, nəinki lombardda. Çatışmazlığı odur ki, bankın kredit şərtləri ağırdır. İş yerindən arayış istənilir. İkincisi, vaxt tələb edilir. Lombardlarda isə qısa vaxt ərzində, 1-2 saata girovu qoyub, onun müqabilində pul götürmək olur. Ona görə də kiməsə təcili pul lazımdırsa, lombarda üz tutur. Lombardların çatışmazlığı isə budur ki, lombardlarda bankla müqayisədə faizlər yüksəkdir. Girovun az bir hissəsi həcmində pul verilir. Qoyulan girovların taleyi sual altında olur. Ya zədələnmiş olur, ya da lombard sahibi götürüb aradan çıxır".

S.Əliyev Azərbaycanda lombardların fəaliyyətinin qanunvericiliklə tənzimlədiyini də qeyd edir: "Ümumi hüquqi şəxslərə tətbiq edilən qanunvericilik lombardlara da tətbiq edilir. Amma banklar, sığorta şirkətləri kimi lisenziyalaşdırılmış fəaliyyət növü deyil. Buna görə də xüsusi tələblər və ona nəzarət edən qurum da yoxdur. İstənilən şəxs lombard açıb fəaliyyət göstərə bilər. Lisenziya tələb etmir deyə xüsusi standartları da yoxdur - girovların saxlanma şəraitindən tutmuş, alıcılara göstərilən xidmətə qədər. Ona görə də kim necə gəldi xidmət göstərir, kim necə gəldi şərtlər qoyur, girov götürür. Bu baxımdan, fikrimcə, lombardların fəaliyyəti Qazaxıstan və Rusiyada olduğu kimi qanunla tənzimlənməlidir. Orada lombard fəaliyyəti lisenziyalaşdırılıb və onların fəaliyyətinə dövlət qurumu (Mərkəzi Bank) nəzarət edir. Əvvəl bizdə də Maliyyə Nazirliyi müəyyən qədər nəzarət edirdi".

Azərbaycanda isə Nazirlər Kabinetinin Lombard fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi Qaydalarının təsdiq edilməsi haqqında 20. 04. 1998-ci ildə qəbul olunmuş qərarı olsa da, bu qərar artıq qüvvədən düşüb. Hazırda lombardlara nəzarət edən hər hansı bir qurum, ya orqan yoxdur. Mərkəzi Bankın İdarə Heyətinin 28.10.2014-cü il tarixli 24/3 nömrəli Qərarı ilə "Lombardlar və daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslər tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi Qaydaları" ləğv edilib. Mərkəzi Bankın İdarə Heyətinin 28.10.2014-cü il tarixli 24/2 nömrəli Qərarı ilə "Prosessinq fəaliyyətinə icazənin verilməsi və nəzarət Qaydaları" qəbul edilib.

❑ **Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

# Büdcə dəyişiklikləri mövcud iqtisadi kursa zidddir-iddia

## Qubad İbadoğlu: "Dəyişikliklər o zaman səmərəli olardı ki..."

**Azərbaycan hökuməti 2018-ci ilin dövlət büdcəsinə dəyişikliklər paketini Milli Məclisə təqdim edib. Paket tam olaraq ictimaiyyətə təqdim olunmasa da, açıqlanan parametrləri dəyərləndirən müstəqil iqtisadçıların böyük əksəriyyəti büdcəyə ediləcək dəyişiklikləri tənqid edirlər.**



**İqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu**nun sözlərinə görə, büdcə dəyişiklikləri prosedur baxımından pozuntularla həyata keçirilir: "Hələ də nə rəsmi qəzetlərdə, nə Maliyyə Nazirliyinin saytında, nə də Milli Məclisin saytında dəyişikliklər layihəsi yerləşdirilməyib. Halbuki proses buradan başlanmalı, hər bir vətəndaşın dəyişikliklər barədə detallı məlumatının olması təmin edilməliydi. Dəyişikliklərin özünə gəlincə, onlar korporativ maraqlara xidmət edir. Çünki büdcə xərclərindən pay götürən şirkətlər büdcənin formalaşmasına əhəmiyyətli töhfə verən qurumlardır. Məsələn, Dövlət Neft Şirkəti büdcənin ən iri təminatçılarından biridir. Bu şirkətə, "Azərenerji"yə iri məbləğdə pul ayrılması korporativ maraqlardan irəli gəlir. Bu halda büdcə dəyişikliyinin sosial əhəmiyyətinin, ictimai yükünün olacağını söyləmək çox çətindir".

**İqtisadçı-alim hesab edir ki, büdcə artımı o zaman səmərəli olardı ki, artan vəsaitlərin bir qismi xaricdə təhsil üzrə proqramın maliyyələşməsinə yönəldilərdi:** "Eyni zamanda vətəndaşların sağlamlığının qorunması üçün icbari tibbi sığorta daha geniş ərazidə tətbiq olunardı. Gənclərimizin mənzil şəraitinin yaxşılaşdırılması üçün sosial mənzil tikintisinə daha çox vəsait yönəldilərdi. Bu baxımdan, hesab edirəm ki, dəyişikliklər büdcə gəlir-xərclərinə səmərəli yanaşmanı nümayiş etdirmir".

**Q.İbadoğlunun sözlərinə görə, dəyişikliklərlə büdcənin neft gəlirlərindən asılılığı daha da güclənir:** "Bu artımdan sonra Neft Fondunun büdcə transferti ötən illə müqayisədə 70 faizədək çoxalmış olur. Bu, 2015-ci ilə qədərki büdcə-vergi siyasətinə qayıdış deməkdir. Mən çox sevinmişdim ki, 2016-cı ildə hakimiyyət bundan imtina edərək, büdcə mədaxilini daha çox qeyri-neft mənbələri üzrə təmin etmək xətti götürmüşdü. Bu, büdcənin neftdən, ölkə iqtisadiyyatının xarici şoklardan asılılığını azaltmağa xidmət edirdi. Təəssüflər olsun ki, dünya bazarında neftin qiymətinin artmasından sonra 2018-ci il büdcəsində neftdən asılılıq yenidən gücləndirildi. Bu, əslində ölkənin iqtisadi kursunun əleyhinədir, 2016-cı ildən başlanmış siyasətin ləğvi deməkdir".

❑ **DÜNYA, "Yeni Müsavat"**

# "AST Telman"ın və qardaşının mühakiməsi başladı-iki qətl

## "Mən həyatım boyu bircə dənə də olsun cinayət törətməmişəm" deyən Telman İsmayılov və daha bir qardaşı axtarışdadır

**Moskva vilayət məhkəməsində Telman İsmayılovun qardaşı, sifarişli qətllərdə ittiham olunan biznesmen Rafiq İsmayılovun işi üzrə məhkəmə prosesi başlayıb.**

Musavat.com-un Rusiya KIV-lərinə istinadən məlumatına görə, R.İsmayılov keçmiş ortağı Vladimir Savkinin və onun dostu, "Lyublino-Motors" şirkətinin təsisçisi Yuri Brilyovun qətlində ittiham olunur.

Rusiya İstintaq Komitəsi Azərbaycan əsili milyarder, AST Şirkətlər Qrupunun sahibi, hazırda Fransada gizlənən Telman İsmayılov barəsində istintaqı hələ fevral ayında yekunlaşdırmışdı. Məlumatda bildirilir ki, T.İsmayılov və qardaşı Rafiq İsmayılov 2016-cı ildə Moskva vilayətində iki nəfərin ölümündə günahkar bilinirlər. Qətllərdən biri






2016-cı ilin mayında baş verib. Məlumdur ki, "AST Telman"ın hazırda həbsdə olan qardaşı Rafiq İsmayılov şəriki Vladimir Savkinin qətlində suçlanır. Belə ki, onların şərikli ticarət kompleksi olub. Sonradan şərikli biznes satılıb və 10 milyon dollar gəlir əldə olunub. Amma R.İsmayılov şərikinə çatmalı olan 5.6 milyon dolları verməyib. İstintaq bu qənaətə gəlib ki, R.İsmayılov pulu Savkinə verməmək üçün onu aradan götürmək qərarına gəlib. Bunun üçün əvvəllər məhkum olunmuş Mehman Kərimova Savkinin qətli sifariş olunub. Hadisə zamanı Savkin təsadüfən biznesmen tanışı ilə birlikdə olduğundan killer onu da öldürüb.

Qətldən az sonra R.İsmayılov saxlanılsa da, qardaşı Telman İsmayılov hüquq-mühafizə orqanlarındakı əlaqələri sayəsində onu həbsdən buraxdırıb. Savkinin oğlunun davamlı şikayətlərindən sonra isə məsələyə Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkin qarışıb və yeni müstəntiq işin üstünü bir neçə günə açıb. Bu qətllə bağlı daha öncə "AST Telman"ın qardaşı Rafiq və killer Mehman Kərimov həbs ediliblər. T.İsmayılovun vəkili isə iddia edir ki, killer istintaqla danışığa gedib və müdafiə etdiyi iş adamına şər atır.

İsmayılov qardaşlarına ikinci ittiham "Lyublino motors" şirkətinin təsisçisi Yuri Brilyovun öldürülməsi faktı ilə bağlıdır. Qeyd edək ki, "AST Telman"ın daha bir qardaşı - Vaqif İsmayılov da 2 nəfərin qətl işi üzrə əsas fiqurantdır və o da axtarışdadır.

T. İsmayilov ötən ilin noyabrında videomüraciət yayaraq təslim olmayacağını, əksinə, ona qarşı olanları cəzalandırmaq üçün hərəkətə keçəcəyini demişdi.

**Səs yazısı olan müraciətdə T.İsmayılov bunları demişdi:** "9 il davam edən informasiya terroru nəticəsində mənə qarşı bir çox ittihamlar irəli sürülüb. Bunların heç biri təsdiqini tapmayıb. İndi isə məni adam öldürməkdə ittiham edirlər. Mən həyatım boyu bircə dənə də olsun cinayət törətməmişəm. Mən israrla iddia edirəm ki, günahım yoxdur və bunu isbat edə bilərəm. İstintaq mənə qarşı irəli sürülən ittihamları məndən gizlətməsəydi, mən Moskvaya gələrdim və günahsız olmağım barədə sübutları təqdim edərdim. Buna görə istintaq gizli şəkildə aparılıb, həbs qərarı da o formada verilib. Lakin mən indi də günahsız olduğumu sübut etməyə hazıram".

**T.İsmayılov barəsində qiyabi həbs qərarını ötən ilin oktyabr ayının 30-da çıxarıb. Bundan sonra o, beynəlxalq axtarışa verilib.**

❑ **"YM"**

YENİ MÜSAVAT
N 131 (7020) 20 iyun 2018

# Pambıq tarlasında kütləvi zəhərlənmə-cinayət işi başlandı

## Prezidentin tapşırığı ilə nazir və baş prokurorun müavini İmişliyə getdi; icra başçısı deyib ki, fəhlələr işləyən sahədə hər hansı dərman preparatından istifadə olunmayıb; deputatlardan vəziyyətlə bağlı narahat açıqlamalar

**İmişlidə pambıq tarlasında kütləvi zəhərlənmə baş verib. İmişli rayon xəstəxanasının baş həkimi Cəsur Paşayevin APA-nın Mil-Muğan bürosuna verdiyi məlumata görə, iyunun 19-da səhər saatlarında 35 nəfərə qədər şəxs xəstəxanaya müraciət edib:**





"Onların bir çoxu panik vəziyyətdə bizə müraciət ediblər, sadəcə, zəhərlənə biləcəklərindən qorxublar. Artıq müraciət edənlərin əksəriyyəti evə yola salınıb. Hazırda palatalarda bir neçə xəstə var. Onların da heç birində ciddi zəhərlənmə əlaməti yoxdur".

**İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev isə APA-ya deyib ki, o, hadisə ərazisində olub və daha sonra xəstəxanaya baş çəkib:** "Mən hazırda xəstəxanadayam. Fəhlələr işləyən sahədə hər hansı dərman preparatından istifadə olunmayıb. Yaxınlıqdakı digər sahə dərmanlanıb, həmin sahəyə kimyəvi maddənin təsiri keçmədən heç kim buraxılmır, sadəcə, küləyin təsirindən bu sahədə işləyən bir neçə nəfər yüngül baş gicəllənmə və ürəkbulanma hiss edib, ona görə də fəhlələr dərhal xəstəxanaya gətiriliblər".

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova bildirib ki, zəhərlənən şəxslər ürək bulanma və yüngül baş ağrısı şikayəti ilə rayon xəstəxanasına müraciət ediblər:** "Hazırda həmin şəxslərdən götürülmüş analizlər Bakıya, Referans Klinik Laboratoriya Mərkəzinə göndərilib. Analiz nəticələrindən sonra bunun zəhərlənmə olub-olmadığı dəqiqləşdiriləcək".

APA-nın məlumatına görə, kənd təsərrüfatı naziri İnam Kərimov, baş prokurorun birinci müavini Rüstəm Usubov və digər rəsmi şəxslər hadisə yerində olublar. Onlar zəhərlənən fəhlələrə baş çəkiblər.

Nazir İnam Kərimov bildirib ki, həm İmişlidə baş vermiş hadisə, həm də bundan əvvəl Saatlı və Tərtərdə pambıq sahəsində baş verənlərlə bağlı Baş Prokurorluq tərəfindən cinayət işi başlanıb, hadisənin əsl səbəbi araşdırılır: "Bu məsələ birbaşa cənab prezidentin nəzarətindədir. Hazırda Kənd Təsərrüfatı Nazirliyinin, Baş Prokurorluğun, Qida Təhlükəsizliyi Agentliyinin, Fövqəladə Hallar Nazirliyinin nümayəndələri bu rayona ezam olunub".

**Nazir qeyd edib ki, pambıq texniki bitkidir:** " Pambığın ərsəyə gəlməsi üçün həşəratlara qarşı kimyəvi maddələrin tətbiqi qaçılmazdır, zəruridir. Amma burada özəl şirkətlərin də üzərinə ciddi öhdəlik düşür. Özəl şirkətlər və fermerlərin həm biçində, həm də qulluqda texniki təhlükəsizlik qaydalarına ciddi riayət etməklə bağlı məsuliyyəti var. Həmçinin dərmanların keyfiyyəti ilə bağlı məsələ də araşdırılır. Biz istintaqın nəticələrini gözləməliyik. Ehtimala görə, bu hadisələr idxal olunan dərmanların keyfiyyəti və yaxud özəl şirkətlər tərəfindən təhlükəsizlik qaydalarına riayət olunmamasından baş verə bilər".

Nazir onu da qeyd edib ki, bu il iyulun 1-nə qədər fitosanitar sahədə dərman preparatlarının idxalına Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti, bundan sonra isə Qida Təhlükəsizliyi Dövlət Agentliyi icazə verəcək.

**Nazir bildirib ki, zəhərlənən şəxslərin vəziyyəti normaldır:** "Çox şükür ki, hər şey qaydasındadır. Xəstələrin vəziyyəti normaldır. Onlar yəqin ki, evlərinə buraxılacaq".

"Bu hadisələr daha çox, bilgisizlik və peşəkarlıq amili ilə bağlıdır". Deputat Fazil Mustafa bunları son vaxtlar Saatlı və Tərtər rayonlarında pambıqçıların pambıq sahələrində kütləvi zəhərlənməsi ilə müşayiət olunan hadisələri şərh edərkən bildirib.

**Deputatın fikrincə, müəyyən məhsulların yetişdirilməsində insan orqanizminə təsirsiz preparatlardan istifadə olunmalıdır və eyni zamanda onlara problem yaratmamalıdır:** "Burada insan amilini nəzərə almadan məhsul yetişdirmək sovet ənənəsinin geri qaytarılmasıdır ki, yolverilməzdir. Həmin zaman keçdi ki, təyyarə ilə sahələrə dərman səpirdilər, camaat da sahələrdə işləyirdi".

F.Mustafa bildirib ki, indi kapitalist iş üsulu dövrüdür, yeni texnoloji avadanlıqlardan istifadə olunmalıdır.

Deputat hesab edir ki, bu faktlar ciddi araşdırılmalıdır, əks halda isə belə hallar pambıqçılığın inkişafından çox tənəzzülünə əsas ola bilər.

**Milli Məclisin 80 saylı İmişli-Beyləqan seçki dairəsindən deputatı Çingiz Qənizadə modern.az saytına açıqlamasında bildirib ki, ilkin məlumatlara görə, zəhərlənənlərin sayı təxminən 45 nəfərdir:** "Baş həkimlə əlaqə saxlamışam. Pambıq əkini ilə məşğul olan "MKT" deyilən bir qurum var. Onların pambıq sahəsində müqavilə ilə işləyən işçilərinin sayı çoxdur. Ehtimal olunur ki, fəhlələr alaq əleyhinə vurulan kimyəvi maddədən zəhərləniblər. Xəstəxanaya təxminən 45 nəfər müraciət edib. Lakin zəhərlənənlərin heç birində ciddi əlamət yoxdur, yüngül ürək bulantısı var. Müraciət edənlərin hamısına sistem köçürülüb və evlərinə buraxılıb. Sadəcə, müəyyən adamlar panikaya düşüblər. Buna baxmayaraq, ehtimal var ki, xəstəxanaya müraciət edənlərin sayı artacaq".

**Deputat Azərbaycanın bir neçə rayonunda bu cür halların ardıcıl baş verməsinə də münasibət bildirib:**

"Hesab edirəm ki, ölkəyə gətirilən kimyəvi maddələrin tərkibi ən yüksək səviyyədə araşdırılmalıdır. Onun normadan artıq vurulmasına göstəriş verən hər bir şəxs kimliyindən asılı olmayaraq məsuliyyətə cəlb edilməlidir. Biz insanlarımızın həyatı, sağlamlığı ilə hansısa pambıq və ya kənd təsərrüfatı məhsulunun xatirinə oynaya bilmərik. Cənab prezident qarşıya məqsəd qoyub, amma kortəbii işlərin görülməsini, Azərbaycan vətəndaşlarının həyatını təhlükəyə qoymağı deməyib! Düşünürəm ki, bu fakta görə dərhal cinayət işi başlanmalıdır. Ölkənin bütün ərazilərindəki pambıq əkilən yerlərdən nümunə götürülərək laboratoriyada analiz olunmalıdır. Analizin cavablarına uyğun olaraq kimyəvi maddəni normativ qaydadan artıq tətbiq edən şəxslər məsuliyyətə cəlb edilməlidir".

Qeyd edək ki, iki gün əvvəl - iyunun 17-də Tərtər rayonunda pambıq sahəsində işləyən 14 nəfər zəhərlənmə şikayətləri ilə xəstəxanaya müraciət edib. Bundan əvvəl, Saatlıda pambıq sahəsində 21 nəfər zəhərlənib.

❑ ORXAN,
"Yenì Müsavat"

# Rayonlarda taxıl sahələrdə batır - kombayn tapılmır...

## KTN rəsmisi: ""Aqrolizinq"in kombaynları ilə ölkədə əkilmiş 990 min hektar taxılın yalnız 37-38 faizi biçilə bilər"

**Artıq bir neçə həftədir Azərbaycanda taxıl biçini başlayıb. Əlverişsiz hava şəraiti biçin prosesini xeyli ləngidib. Bir sıra rayonlarda isə məhsulun toplanması üçün kombayn qıtlığı yaşanmaqdadır. Bununla bağlı sosial şəbəkələrdə aparılan müzakirələrdən, həmçinin redaksiyamıza daxil olan müraciətlərdən aydın olur ki, Göyçay, Bərdə, Tərtər, Ağcabədi, Zərdab və digər rayonlarda kombayn çatışmazlığı var. Hətta bəzi rayon sakinləri Kənd Təsərrüfatı Nazirliyi "Aqrolizinq" ASC-nin yerlərdəki filiallarının texnikanı ilk növbədə yerli icra hakimiyyətlərinə yaxın olan şəxslərin zəmilərini biçməyə yönəltdiklərini iddia edirlər.**



**"Aqrolizinq" ASC-nin şöbə müdiri İsrafil İsmayılov**un "Yeni Müsavat"a dediyinə görə, yerlərdə kombayn qıtlığı yoxdur: "Məsələ burasındadır ki, bu gün Azərbaycanda 2700-dək kombayn var. Bunun cəmi 632 ədədi "Aqrolizinq" ASC-nin rayon bölmələrinin istifadəsindədir. 865 kombayn fərdi lizinq alanların istifadəsindədir - "Aqrolizinq"dən alıblar. 750-dən yuxarı kombayn iri şirkətlərdə, müəssisələrdə və mülkiyyətçi fermerlərdədir. Hazırda 2400 ədəd kombayn biçin aparır. Bundan əlavə, biz bu il 135 ədəd kombayn gətirmişik, kombaynların daxil olma prosesi davam edir. Yəni ölkədə yetərincə kombayn var. Sadəcə, "Aqrolizinq"də olan kombaynların 52 faizi istismar müddəti bitmiş maşınlardır".

**Şöbə müdirinin dediyinə görə, yağıntılı hava şəraiti ölkədə arpa biçinini xeyli yubadıb:** "Bu il ölkə üzrə arpa əkinləri keçən ilkindən xeyli çoxdur. Bunun da səbəbi budur ki, keçən il arpa baha qiymətə satıldı, vətəndaşlar da bu il onu daha çox əkdilər. Arpa kövrək bitkidir, vaxtında yığılmayanda sünbül qırılıb düşür. Hava şəraiti imkan vermədi ki, onu vaxtında biçib başa çatdıraq. Nəticədə gəlib buğdanın yetişdiyi dövrə düşdü. İndi ona görə yerlərdə sıxlıq yaranıb. Kombaynların sayı kifayət qədər olsa da, vətəndaşlarımız bir qədər səbirsizlik göstərirlər. Bildiyiniz kimi, "Aqrolizinq" cənab prezidentin tapşırığı ilə məhz kiçik təsərrüfatlara xidmət göstərmək üçün yaradılıb. Biz taxıl sahəsi 3 hektardan aşağı olan vətəndaşlara xidmət göstəririk. Bu gün ölkədə taxıl əsasən 3 hektardan aşağı sahələrdə əkilir deyə növbə yaranır. Bir kombayn eyni vaxtda yalnız bir sahəni biçə bilər. Bizim vətəndaşlar isə istəyirlər onlar deyən kimi kombayn gəlsin. "Aqrolizinq"in kombaynları ilə ölkədə əkilmiş 990 min hektar taxılın yalnız 37-38 faizi biçilə bilər. Amma müraciətlərin hamısı "Aqrolizinq"in rayon bölmələrinə yönləndirilir deyə sıxlıq yaranır".

**İ.İsmayılov deyir ki, rayonlarda yerli icra strukturlarının ASC-nin bölmələrinin fəaliyyətinə təsir etməsi faktı yoxdur:** "Biz iri təsərrüfatlara çox az hallarda xidmət göstəririk. İndiyədək rayon bölmələrindən bizə icra strukturlarının fəaliyyətlərinə təsir etməsi barədə hər hansı məlumat daxil olmayıb. Belə hal yoxdur, biz çalışırıq ki, hamının müraciətinə növbəlilik qaydasında baxaq, məhsulu yığıb sahiblərinə təhvil verək. Sadəcə, camaatımız da bir qədər səbirli olmalıdır".

❑ DÜNYA,
"Yenì Müsavat"

YENİ MÜSAVAT
N 131 (7020) 20 iyun 2018

# "Paşinyanın taleyi Azərbaycanın əlindədir" - Bakı götür-qoy edir

## Tanınmış ekspert erməni baş nazirin ayağını Qarabağdan kəsməyin yolunu göstərdi

**Ermənistanın baş naziri Nikol Paşinyan baş nazir seçilməsindən sonrakı ayyarımda ikinci dəfə işğal altındakı Dağlıq Qarabağa gəldi. Ötən həftə o, yenə Şuşada olub və Azərbaycana qarşı təxribatçı açıqlamalar verib. Geri qayıtdıqdan sonra isə Xocalıda yerləşən hava limanında turistlərin iştirakı ilə şou göstəriblər, kiçik motorlu ucaqları havaya qaldırıblar. Bu da azmış kimi, Paşinyan Rusiyanın onlara hədiyyə etdiyi "Su-30" CM qırıcı təyyarəsində çəkdiryi şəkli sosial şəbəkəsindəki səhifəsində yerləşdirib.**


Qabil Hüseynli

**Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev vasitəsilə Nikol Paşinyanın Dağlıq Qarabağa səfər etməsinə münasibət bildirib. H.Hacıyev bildirib ki, yeni Ermənistan rəhbərliyi bu ölkənin üzləşdiyi ciddi sosial-iqtisadi problemlərin həllində acizliyini dərk edərək müharibə və Qarabağ mövzusu ilə ictimai fikri manipulyasiya etməyə çalışır:** "Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərinə, o cümlədən qoşunların təmas xəttinə səfərini müharibəyə çağırış kimi qiymətləndiririk. Ermənistan prezidentinin ardınca bu ölkənin baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə səfəri təxribatdır, hərbi avantüradır və qəsdən vəziyyətin gərginləşdirilməsinə hesablanmış addımdır. Bunlar açıq şəkildə göstərir ki, Ermənistan danışıqlar yolu ilə münaqişənin həllində və nəticə etibarilə, Azərbaycana qarşı davam edən hərbi təcavüz və işğalına son qoymaq və işğal edilmiş Azərbaycan ərazilərindən öz qoşunlarını çıxarmaqda maraqlı deyildir. Ermənistanın məqsədi müxtəlif bəhanələrlə danışıqlar prosesini iflic etmək, təxribatlar yolu ilə vəziyyəti gərginləşdirmək, Azərbaycan ərazilərinin işğalını davam etdirmək və işğala əsaslanan status-kvonu saxlamaqdır. Danışıqların alternativinin nə olduğunu hamı çox yaxşı bilir və buna görə də məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür. Ermənistanın yeni rəhbərliyinin yürütdüyü hərbi avantüra siyasəti regionu yeni təhlükələrlə üz-üzə qoyur".

Bəs Azərbaycan Paşinyanın Qarabağa gəlməsinin qarşısını necə almalıdır? Qarabağ səması bizim hava məkanımız olduğu halda onu pozmağı adi hala çevirməyə çalışan erməni baş nazirin ayağını Qarabağdan necə kəsməli?

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a şərhində öncə bildirdi ki, Paşinyan əslində böhranla üz-üzədir:** "Çünki onun hakimiyyətə gəlişindən sonra bəzi kadr islahatlarından savayı irəliyə doğru addım atılmayıb. Ən başlıcası sıravi erməninin maddi rifah halında irəliyə doğru hiss ediləcək cüzi dəyişiklik belə olmayıb. Bu cür xarakterli dəyişikliklərdən sonra xalq həmin dəyişikliklərə liderlik etmiş adamlardan daha çox məsələlərin həllini gözləyir. İlk növbədə sosial-iqtisadi xarakterli məsələlərin həllini istəyir. Amma belə görünür ki, Paşinyanın ay yarımlıq hakimiyyətində heç o sosial xarakterli dəyişikliyin bünövrəsini belə qoya bilməyib. Doğrudur, Paşinyan Ermənistanda Qarabağ klanına qarşı mübarizəni özünün əsas məqsədlərindən biri kimi təqdim edir. Burada bir nüansı xüsusi qeyd etmək lazım gəlir ki, yerli ermənilərlə Qarabağdan gələn ermənilər arasında psixoloji vuruşma özünü göstərməkdədir. Paşinyan nə qədər millətçi şüarlara müraciət etsə də, bu məsələlər adi şüur səviyyəsində öz həllini tapmayıb. Paşinyanın qarşısında duran ən mühüm vəzifə Dağlıq Qarabağ məsələsində tutacağı mövqedir. Bu məsələdə Paşinyan demək olar ki, çaş-baş durumdadır. Bu vəziyyətdən doğan müxtəlif ziddiyyətli mövqelər sərgiləməsi də müşahidə olunur. Onun Dağlıq Qarabağa səfərləri də bu ziddiyyətli mövqedən irəli gəlir. O başa düşməlidir ki, Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır və Azərbaycan onu hava məkanını pozduğu üçün elə havadaca vurmaq hüququna malikdir".

**Azərbaycanın ata biləcəyi addımlara gəlincə, Q.Hüseynli qeyd etdi ki, Ermənilərin işğal altındakı Xocalıda tikdiyi hava limanı qeyri-qanunidir:** "Azərbaycan tərəfi bunu dəfələrlə bəyan edib və bildirib ki, oradan uçuşlar həyata keçirilməsinə imkan verilməyəcək. Biz buna görə Beynəlxalq Mülki Aviasiya İdarəsinə də müraciət etmişik. Bu məsələdə Azərbaycanın mövqeyi beynəlxalq qanunlara uyğun olaraq müdafiə edilib, Dağlıq Qarabağdakı hava məkanının Azərbaycana aid olduğu bildirilib. Odur ki, Xocalı hava limanından qanunsuz istifadə edilməsinin qarşısını ala biləcək müxtəlif tədbirlər görə bilərik. Beynəlxalq qanunlar və özünün qanunları Azərbaycan dövlətinə bu addımları atmağa hüquq verir. Azərbaycan bu məsələni ciddi surətdə beynəlxalq təşkilatlarda müzakirə obyektinə çevirə bilər.

Amma belə görünür ki, Paşinyan və erməni separatçılarını onların başa düşəcəyi dildə başa salmaqdan başqa yol qalmır. Paşinyan hakimiyyətə gəldikdən sonra keçən az müddət ərzində iki dəfə Azərbaycan ərazilərinə gəlməklə düşünür ki, Azərbaycana meydan oxuyur. O, bu davranışı ilə faktiki olaraq Azərbaycanı müharibəyə sürükləyir. Paşinyan danışıqlar aparmaq niyyətində olmadığını bu addımları ilə ortaya qoymuş olur. Erməni baş nazir Azərbaycana onun vertolyotunu hava sərhədimizi keçən zaman vurmaqdan başqa yol qoymayacaq bu gedişlə. Paşinyan bunu istəyirsə, Azərbaycan ordusu bunu etmək gücündədir. Hesab edirəm ki, Paşinyanın ayağını Qarabağdan kəsməyin yeganə yolu hərbi gücə əl atmağımız ola bilər".

**Politoloq vurğuladı ki, Naxçıvan istiqamətində Azərbaycan ordusunun uğur qazanması artıq erməni ictimai rəyində Paşinyanın Azərbaycan ordusunun qarşısında məğlubiyyətinin başlanğıcı kimi qarşılanır:** "Ordumuz Naxçıvandakı uğuru Qarabağ istiqamətində də bir həmlə ilə təkrarlayarsa, artıq bu hadisə Paşinyanın Ermənistan xalqının nəzərində nüfuzunun sürətlə enməsinə təkan verəcək. Bir sözlə, Paşinyan bilməlidir ki, onun taleyi həm də Azərbaycanın əlindədir. Azərbaycan onu elə bir sınağa çəkə bilərik ki, bu sınaqdan çıxa bilməz və siyasi çöküşü başlayar. Azərbaycan onsuz da səmərəsiz danışıqlardan cana yığılıb və məsələni döyüş meydanında həll etməkdən başqa yolun olmadığına qəti əmin ola bilər. Bu zaman Paşinyan nəinki Qarabağa gələ bilməyəcək, hətta az sonra Ermənistanda da qala bilməyəcək. Azərbaycan vəziyyəti hazırda götür-qoy edir və gəlinən qənaət odur ki, separatçı ermənilərə güc yolu ilə dərs verilməlidir. Paşinyanın sonuncu Dağlıq Qarabağ səfərindən sonra bu qənaət Azərbaycanın müxtəlif kəsimlərində öz mövqeyini kifayət qədər möhkəmləndirib".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Sərdar Cəlaloğlundan ona hücum edənlərə sərt cavab

## "Özlərini ifşa etmiş şəxsləri mənə qarşı danışdırırlar"

**Son günlərdə gündəmdə olan əsas şəxslərdən biri Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğludur. Prezident seçkiləri ərəfəsində irəli sürdüyü Azərbaycan-Türkiyə konfederasiyasının yaradılması təklifi partiya sədrini hədəf nöqtəsinə gətirib.**

Sabiq prezident Ayaz Mütəllibov, AMİP lideri Etibar Məmmədov, deputatlar Tahir Kərimli, Araz Əlizadə, Tahir Rzayev, Musa Musayevin konfederasiya təklifinə sərt mövqelərinin ardından son olaraq, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə məsələyə mövqe bildirib.

**O qeyd edib ki, bu cür düşünənlər müstəqil Azərbaycan dövlətçiliyini istəmirlər:** "Mən onun bu cür çıxışları ilə hələ tanış deyiləm. Əgər Sərdar Cəlaloğlu doğrudan da belə fikirlər səsləndiribsə, o, çox böyük səhv edir. Görünür ki, o, tamamilə başını itirib. Ulu Öndər ikinci dəfə hakimiyyətə qayıtmasaydı, bəlkə də müstəqilliyimizi qoruyub saxlaya bilməzdik. Çünki yeni müstəqillik qazanan dövrdə Azərbaycanda vəziyyət qeyri-sabit idi, müstəqilliyimizə qarşı ciddi təhlükələr var idi. Ulu Öndər Heydər Əliyev Azərbaycanı düşdüyü böhrandan xilas etdi".

Qeyd edək ki, S.Cəlaloğlu təkcə bu təklifinə görə gündəmə gəlməyib. Onun Londonda villasının olduğu, xaricdən maliyyələşdirildiyi, oğlunun hərbi xidmətdən yayındığı barədə mətbuatda yazılar dərc olunur. Partiya sədri bu cür yazılar dərc edən big.az, olke.az, oxu.az, report.az, qaynar.info və modern.az saytlarını yaxın günlərdə məhkəməyə verəcək.

**ADP sədri "Yeni Müsavat"a açıqlamasında konfederasiya təklifinə sərt mövqelər sərgiləyənlər barədə bunları deyib:** "Seçkidə iştirakım və orada göstərdiyim mövqe ruspərəst qüvvələr və digərlərinin mənimlə bağlı bu cür kampaniya təşkil etmələrinə ən başlıca səbəbdir. Bu kampaniyanın heç bir təsiri yoxdur. Cəmiyyətdə nüfuzu olmayan, özlərini ifşa etmiş şəxsləri mənə qarşı danışdırırlar. Bu da mənim xeyrimədir. Görünür, bəzi qüvvələr prezident seçkilərindəki iştirakımdan narazı qalıblar. Çox güman ki, kampaniya hələ bir müddət davam edəcək. İmkan daxilində şəxsiyyətsiz adamlardan mənə qarşı istifadə edəcəklər. Bəzi saytlar barədə məhkəməyə müraciətlə bağlı sənədlər hazırlamışıq. Həmin saytlar verdikləri yazılara görə cavab verməlidirlər. Əslinə baxsaq, cəmiyyətimiz politikdir. Türkiyə-Azərbaycan münasibətlərinə qarşı ruspərəst qüvvələrin hücumu təşkil olunub. Gərək iki qardaş ölkənin münasibətlərinin tərəfdarı olanlar buna qarşı birləşərdilər. Amma təəssüflər olsun ki, bunu bacarmırlar. Görünür, onların millətçilikləri elə bura qədərdir. Bununla bağlı həmin qüvvələrə müraciətim tamamilə mənasız olardı. Təkbaşına onların hamısının cavabını vermək gücündəyəm. Mən o qüvvələrə ancaq cavab verirəm, hücum etmirəm. Son olaraq Arif Rəhimzadə barəmdə xoşagəlməyən fikirlər səsləndirib. Bu insanın mənim üçün heç bir dəyəri yoxdur. Arif Rəhimzadə Azərbaycanın müstəqilliyinin, suverenliyinin, Azərbaycan türkünün əleyhinə açıq şəkildə fəaliyyət göstərən bir şəxsdir. O, xalqımızın, dövlətimizin, dilimizin düşmənidir. Bu baxımdan onun haqqında nəsə bir fikir söyləməyi artıq hesab edirəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 131(7020) 20 iyun 2018

**Artıq iki aydır ki, Bakı Şəhər İcra Hakimiyyəti postu boş qalıb. Paytaxta kimin rəhbərlik edəcəyi ilə bağlı səslənən versiyalar isə hələ ki təsdiqini tapmayıb. Bu posta təyinatın olmaması ictimaiyyətdə bir çox məlumatların da yayılmasına səbəb olub. İddialara görə, Bakıda böyük şəhər bələdiyyəsi formalaşdırılması planı var. Bu səbəbdən də şəhər başçısı postuna təyinatın olmadığı qeyd olunur.**

# İki aydır boş qalan BŞİH başçısı postu-müəmma

## Ümumilikdə isə hazırda BŞİH-də təkcə başçının deyil, onun iki müavininin də yeri boş qalıb



Məlumat üçün qeyd edək ki, prezident İlham Əliyevin aprelin 21-də imzaladığı sərəncamla Nazirlər Kabinetinin yeni tərkibi müəyyənləşdi. Sərəncama əsasən, hökumətin tərkibində xeyli dəyişikliklər oldu. Təyinatlardan biri də Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun baş nazirin müavini vəzifəsinə gətirilməsi idi. Abutalıbovdan sonra Bakı şəhər icra başçısının vəzifələrini müvəqqəti olaraq BŞİH-də yeganə müavin olan Fidumə Hüseynova icra edir. Ümumilikdə isə hazırda BŞİH-də təkcə başçının deyil, onun iki müavininin də yeri boş qalıb.

BŞİH rəhbərliyində 3 əsas vəzifə var - başçı və iki müavin. Bakı Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Rauf Pənahov ötən il iyulun 20-də vəfat edib. Həmin vaxtdan bu günə qədər onun da yerinə təyinat olmayıb. Digər müavin isə yuxarıda da qeyd etdiyimiz kimi başçının səlahiyyətlərini icra edir. Həm də bu baxımdan fikirlər dolaşır ki, ümumilikdə BŞİH-də idarəçilik sistemi dəyişdirilə bilər.

**"Yeni Müsavat"a danışan "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev bildirib ki, əslində konstitusiyamıza görə, Bakıya xüsusi bir status verilməlidir:** "Çünki ölkənin paytaxtıdır və Bakı şəhərinin statusu haqqında qanunun qəbul edilməsinə ehtiyac var. Əlbəttə ki, bu qanun qəbul edilərsə, orada artıq idarəetmə formasının təşkili məsələsi də öz əksini tapar. Başçının müəyyənləşməsi ya seçkili, ya da təyinatlı formada olmalıdır. Yaxud da Bakı şəhər bələdiyyəsi ilə bağlı məsələlərə diqqət yetirilməlidir. Böyük şəhər bələdiyyəsinin yaradılmasına ehtiyacın olub-olmaması araşdırılmalıdır. Bələdiyyələrlə bağlı məsələlər "Bələdiyyələrin statusu haqqında" Qanunda öz əksini tapmalıdır. Hər halda, Bakı şəhəri haqqında konstitusiya qanunu qəbul edilərsə, bu məsələlər öz həllini tapa bilər. Şübhəsiz ki, Bakı şəhərinin idarəetmə formasında dəyişiklik zəruridir. Mövcud idarəetmə forması sistemi Bakı şəhərinin tam olaraq təkmil idarəetməsini rasional formada təmin etmir. Bakı şəhər bələdiyyəsini də yaratmaq, merin seçkisi məsələsini müəyyənləşdirmək olar. Dünyanın bir çox ölkələrində paytaxtla bağlı xüsusi status var. Burada paytaxt merinin müəyyənləşməsi məsələsi də seçki yolu ilə həll olunur. Hər halda, bizdə də bu barədə düşünmək olar".

**Bu məsələlərin öz həllini necə tapacağına gəlincə, ekspert dedi ki, qeyd edilənlər Milli Məclisin səlahiyyətləri daxilindədir:** "Yaxud da ölkə başçısı tərəfindən Bakı şəhərinin statusu haqqında konstitusiya qanunun qəbul edilməsi ilə bağlı təşəbbüs verilə bilər. Hər halda, bu, artıq müvafiq strukturların həll edəcəyi məsələdir".

Ekspert hesab edir ki, Bakı şəhəri ilə bağlı idarəetməyə bir də baxılması yaxşı olar: "Çünki mövcud idarəetmə sistemi rasional idarəetmə sistemi deyil. Bir çox suallarla hər zaman qarşılaşımi? Əlbəttə ki, yox. Adicə kanalizasiya sisteminin qurulması, Bakı şəhərinin enerji ilə təmini məsələsi qurumun səlahiyyətindən kənardır. Təsərrüfat sahəsində də heç müstəqilliyə malik deyil. Bütün hallarda müvafiq agentliklərdən, departamentlərdən asılıdır. Eyni zamanda Bakı şəhərində tikinti ilə bağlı məsələlərdə də tam səlahiyyətə malik deyil. Yaxud da bu səlahiyyətlərin icrasında qüsurlar var. Bütün bunlara baxılmalıdır. Nəzərə alınmalıdır ki, ölkə başçısı Bakı şəhərinin inkişafına xüsusi diqqət ayırıb. Ölkəyə gələnlərin ilkin qarşılanma məsələsi Bakıda baş verir. Paytaxt günü-gündən gözəlləşir, yeni infrastrukturlar yaranır. Ancaq bütövlükdə bunun Bakı şəhər hakimiyyət orqanları tərəfindən idarə edilməsinə heç bir aidiyyəti yoxdur. Bu, cənab prezidentin göstərişləri, iradəsi əsasında baş verir. İcra hakimiyyəti isə burada yanakı funksiyanı yerinə yetirir. Hər halda, ölkədə idarəetmənin təkmilləşdirilməsi istiqamətində addımlar atılır, islahatlar gedir. Bu amil də güman edirəm ki, nəzərə alınacaq. Digər icra hakimiyyətlərində hansı dəyişikliklərin olması

rıq. Burada mərkəzi icra hakimiyyəti orqanları ilə Bakı Şəhər İcra Hakimiyyəti arasında səlahiyyət bölgüsü məsələsinə də baxmaq lazımdır. Bakı şəhəri idarəetmə zamanı tam olaraq bütün məsələlərdə qərar qəbul etmək səlahiyyətinə malikdirisə Bakı şəhərində idarəetməni nə cür görəcəyimizdən asılıdır. Bəlkə heç rayon icra hakimiyyətlərinə ehtiyac olmayacaq və sadəcə olaraq, ərazi idarəetməsi müəyyənləşəcək. Bununla bağlı düşünmək lazımdır. Hansı konsepsiya qəbul ediləcəksə, bunun əsasında idarəetməni də qurmaq olar".

Onu da qeyd edək ki, mətbuatda irəli sürülən versiyalardan indiyə kimi BŞİH-ə başçı kimi bir neçə şəxsin adı hallanıb. Onlardan biri Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovdur. Məlumatlara görə, Niyazi Bayramov gənclər və idman naziri Azad Rəhimovun qudasıdır. Digər versiyaya görə, Abutalıbovun yerini "Bakı Ağ şəhər" layihəsinin və "Bakond" şirkətinin baş direktoru Ruslan Sadıxov tuta bilər. Onunla bağlı da mətbuatda xeyli materiallar dərc olunub.

Abutalıbovun yerinə əsas namizədlərdən biri kimi isə "AzərGold" qapalı səhmdar cəmiyyətinin sədri Zakir İbrahimovun adı çəkilir.

Yeni yaradılmasına baxmayaraq, "AzərGold" qızıl yataqlarının kəşfiyyatı, qızıl və gümüşün hasilatı və ixracı sahəsində xeyli işlər görüb. Onun fəaliyyəti sayəsində Azərbaycanın qeyri-neft ixracatında qızıl ikinci yerə yüksəlib.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Vədlərinə sadiq Trampın verdiyi dərdlər



**Xalid KAZIMLI**

**ABŞ prezidenti Tramp sələflərinin içində bəlkə də yeganə siyasi xadimdir ki, seçkiqabağı kampaniyada seçicilərinə verdiyi vədləri birbəbir yerinə yetirməyə çalışır.**

Düzdür, o, bəzi hallarda dövlətin ümdə mənafelərini düşünən senatorlar, konqresmenlər, prokurorlar tərəfindən müqavimətlə qarşılaşır, hər istədiyini asanlıqla həyata keçirə bilmir, amma adam var gücü ilə cəhd edir ki, xalqın qarşısında yalançı çıxmasın.

O, seçki kampaniyası aparanda "Hər şey Amerika üçün" demişdi. Bu, o demək idi ki, Tramp seçilərsə, dünyadakı proseslər, demokratiya və insan haqları problemləri ABŞ-ın yeni idarəçilərinin vecinə olmayacaq, onlar yalnız ölkənin xeyrinə olan siyasət yürüdəcəklər, uzaq-uzaq ölkələrdə xalqların necə yaşamasına fikir verməyəcəklər.

Bu, həm də o demək idi ki, ABŞ bundan sonra dostları və düşmənləri ilə də münasibətlərinə yenidən baxacaq, faydalı ola biləcək düşmən xeyir verməyən dostdan üstün tutulacaq, xüsu silə də qonşulara münasibətdə əvvəlki siyasət davam etməyəcək.

Vəzifəsinin icrasına başladığı gündən Tramp göstərir ki, vəd etdiyi kimi işləmək fikrindədir. O, ilk olaraq ölkəsinin ənənəvi düşməni Rusiya ilə münasibətləri yumşaltmağa, gor qonşusu Meksika ilə əlaqələri gərginləşdirməyə çalışdı. Birinci də asan alınmadı, ikinci də. Trampın Rusiyaya reveransları, təzimləri intensivləşdikcə, senatorların "impiçment-impiçment" deyə hədə biçmələri də şiddətləndi və Tramp nəfəs dərməli oldu.

Sonra Tramp Amerikası Obamadan qalma Türkiyə siyasətini həmin kursla davam etdirdi. Nəticədə NATO-da ABŞ-la tərəfdaş olan, ABŞ-ın Yaxın Şərq regionunda üç güclü və sadiq müttəfiqindən biri olan Türkiyə rəsmi Vaşinqtona ciddi protestlər etdi, iki ölkənin dostluğu az qala düşmənçilik astanasına gəldi.

ABŞ-ın Şimali Koreya siyasəti az-çox effektliykən, Trampın qardaş Kanada ilə münasibətləri bu cür kəskinləşdirməsi (söhbət qarşılıqlı gömrük sanksiyalarının şiddətlənməsindən, qarşılıqlı boykotlardan gedir) heç gözlənilən deyildi.

Bundan başqa, dədəsi-babası alman olan Trampın Almaniya ilə münasibəti də rəvan deyil, dostluqdan daha çox rəqabət ön plana çıxıb.

Ümumiyyətlə, ABŞ-ın sonuncu prezidentinin Avropanın qüdrətli dövlətləri ilə çəkişməyə meylli olduğu hiss olunur. O, əvvəlki dövrdə olduğu kimi Avropaya arxa-dayaq olmaq niyyətində görünmür, onlardan asılı olmadan, onlarla hesablamadan siyasət yürütməyə çalışır.

Ancaq bu, o demək deyil ki, Tramp firavan, problemsiz (məişət həyatı baxımından) Avropadan üz çevirərək, diqqətini binəsib, kasıb Afrikaya, müharibələrə meydan olmuş Asiya dövlətlərinə yönəldir, onlara humanizm prizmasından yanaşır. Elə deyil. Hətta bunun tam əksinədir.

Tramp lap əvvəldən miqrantlara qarşı olduğunu çığıra-bağıra bildirirdi. Bu günlərdə isə o, açıq-açıq bəyan edib ki, ABŞ miqrant düşərgəsinə çevrilməyəcək.

"Avropada və digər yerlərdə baş verənlərə baxın. Buna yol verilməyəcək, mənim rəhbərliyim altında bu baş verməyəcək",-D.Tramp deyib.

Trampdan miqrantlara qarşı humanist olmağı, ondan öz müvafiq siyasətində dəyişiklik etməyi BMT tələb etmişdi.

Tramp cavabı isə yuxarıdakı kimi olub: "Güzəşt olmayacaq".

Yeni qırılanlar qırılsın, əsir düşənlər düşsün, zorlananlar zorlansın, qul kimi satılanlar satılsın, bunun ABŞ-a dəxli yoxdur, təki Amerika xalqı təhlükəsiz, firavan həyatına davam etsin, necə deyərlər, hər şey Amerikanın mənafeyinə, maraqlarına qurban olsun.

Halbuki 50 böyük və ortabab sayılacaq dövlətin birləşməsindən ibarət olan ABŞ-ın ərazisi də, qüdrətli iqtisadiyyatı da milyonlarla əzab-əziyyət içində olan bədbəxt qaçqınları barındırmağa, onlara sığınacaq verməyə bəs edər.

Başqa vaxt dünya hegemonluğuna can atan, dünya üzərindəki dövlətlərin nə dərəcədə demokratik, azad olduğuna dair hesabatlar hazırlayan, onların insan haqlarına necə riayət etməsini nəzarətdə saxlayan qüdrətli dövlət zəruri dönəmlərdə öz gücünü ortaya qoymalı, bəşər övladlarını labüd məhvdən xilas etməliydi.

Bəlkə də dünya xalqlarının bu halına etinasızlığı, qonşulara qarşı güzəştsizliyi, dostlarla düşmənçilik etməsi, düşmənlərlə dostluq büsatı qurmağa çalışması Amerika xalqının Trampa rəğbətini artıracaq. Amma dünya təkcə ABŞ-dan ibarət deyil. Dünya ağalığına çalışan dövlət ətrafındakı dövlətlərlə intriqada olduqdan sonra nə ağalıqdan əsər-əlamət qalmayacaq, nə də bu dövlət zülmlər, müharibələr, təlatümlər okeanında sakit, təhlükəsiz ada kimi qala bilməyəcək.



# Rusları öyrətməliyik

**Zamin HACI**
zaminhaci@gmail.com

**"Azərbaycan v novıy vek idyot medlenno, medlenno,
Kto imenno ne znayu, vedyot medlenno, medlenno...
...Poroda yesli ot volka, doroqa esli iz şyolka,
Oxotitsya na yaqnyonka, jryot medlenno, medlenno..."**
*(Baba Pünhan, "Rusca qəzəl")*

**Rusiyada iqtisadi böhran dərinləşir, camaatın pensiyasını verməkdə ciddi çətinliklə qarşılaşıblar. Təkcə bu ilin, ya da gələn ilin (dəqiq xatırlamıram) dövlət büdcəsində pensiya üçün 250 milyard rubl çatışmır. Bəs nə etməli? Putin hökuməti klassik avtoritar metodla problemi millətin belinə şələləmək fikrindədir. Hökumət pensiya yaşını qaldırıb kişilər üçün 65, qadınlar üçün 63 yaş eləyəcəyini açıqlayıb. Hazırda uyğun olaraq 60 və 55 yaş imiş. Camaat buna etiraz üçün ciddi şəkildə toplanmağa başlamışdır, çünki bu minvalla ruslar pensiya almağa ömürlərinin çatmayacağını aydın dərk edirlər. Bir neçə qurum mitinqlər elan edib, həmkarlar tətilə çağırıb, 2 milyon insan imza ataraq hökumətə petisiya göndərib və sairə. Bu da onu göstərir ki, Rusiya hökuməti acizdir. Niyəsini yazım.**

Söhbət ondadır ki, eyni cür pensiya "islahatı" bizdə keçən ilin yayında qüvvəyə mindi, bir insan balası da "mıqq" eləyə bilmədi. Nəinki etiraz aksiyası, əksinə, biz həmin mürtəce pensiya paketini alqışladıq. Zəhmətkeşlər, o cümlədən pensiyaçılar rəhbərliyə minnətdarlıq teleqramı yolladılar, həmkarlar təzə qanunu pisləyənlərə söyüş qoydu, siyasi partiyalar "Məhsul" stadionunda "Pensiya yaşı 100 olsun!" şüarı ilə futbol turniri oynadılar, müəllimlər və həkimlər, JEK işçiləri və süpürgəçilər və sairə büdcə zəhmətkeşləri AzTV-nin səyyar kameraları önünə hoppanıb "Allah bizim pensiyamızdan kəsib hökumətə versin, ilahi, amin!" dedilər.

Özü də hələ Rusiyada hökumət pensiya yaşını pillə-pillə qaldırıb yalnız 2028-ci ildə kişilər üçün 65 yaş, qadınlar üçünsə 2034-cü ildə 63 yaş eləmək istəyir. Bizdə isə keçən ilin yayından, dərhal, təxirə salınmadan pensiya yaşı hər bir zəhmətkeş üçün 65 yaş olmuşdur. Yəni belə çıxır, ruslar hökumətlə 2034-cü ilin davasını eləyirlər, biz isə 2017-ci ildən quzu kimi susuruq. Bəlkə biz çoxlu pensiya alacağıq, uzun ömür sürəcəyik, ona arxayınıq? Təəssüf, rəqəmlər tam tərsini göstərir. Hazırda rəsmi statistikaya görə, Azərbaycanda kişilərin orta ömrü 69 yaş, qadınlarda isə 76 yaşdır. Əlbəttə, gerçək orta ömrün dövlət statistikasından böyük fərqi olduğunu biz yaxşı anlayırıq - ən azı yaxından tanıdığımız adamların az qala hamısının 60 yaşa çatmadan öldüyünü görməkdəyik. Cürbəcür xəstəliklər, iqtisadi, sosial, mənəvi problemlər üzündən... Ancaq lap hesab edək rəsmi statistika doğrudur. Belə olan halda bizim kişi xeylağı olaraq pensiyada cəmi 4 il, zənən xeylağı olaraqsa cəmi 11 il qalmaq ehtimalımız vardır. Deməli, hökumət burada əməllicə qazanır, bizim uzun illər işləyib pensiya fonduna yığdıqlarımızı müftəxorluqla qapazlayıb mənimsəyir.

Bizə ən gülməli gələn, əlbəttə, Rusiyada həmkarlar təşkilatlarının zəhmətkeşlərin tərəfində durması, hökumətə etirazların önündə getməsidir. Çünki bizdə həmkarlar idarəsi adətən hökumətin özündən də artıq hökumətpərəst olur və hələ indiyə qədər o idarənin bir zəhmətkeşin yaralı barmağı üzərinə kiçik ehtiyacını ödədiyini görən olmayıbdır. "1 milyon yarım üzvlü həmkarlar prezident seçkilərində namizədini açıqladı", "Həmkarlar həmkorları alqışlayırlar", "Mestkomun sədri Novruz bayramında Qarabağ əlilini yandırıb üstündən hoppandı və gələn il bu vaxt Cıdır düzündə şənlik eləmək arzusunu bildirdi" - bizim o idarədən aldığımız xəbərlər adətən bu tipdədir.

Adamın Volodya Putinə yazığı gəlir. Bütün dünya onu diktator-zad kimi tanıyır, o isə bir sürü alkoqollu pensiyoner mujik və babulyalarla bacarmır. Qonşuda Azərbaycan örnəyi varkən, niyə öyrənmirlər? Bütün dünya bizim ASAN-xidmət təcrübəmizi öyrənir, sən də pensiyanı qaldırmağı öyrən. Lavrovu, Ruşaylonu-zadı seçki öncəsi göndərməklə nə qazanırsan? Yaxşısı budur, pensiyaçıların müdirini göndər, dərs keçək, əhalinin belə qərarları alqışlaması üçün nə etmək lazımdır, başa salaq.

Sözgəlişi, bizim nakam (elə 1-ci ilə də qurtardı deyəsən, çünki daha heç kim bu oyunları öz ərazisində qayırmaq istəmir) Avropa Oyunları da hazırda Rusiyada keçirilən futbol üzrə dünya çempionatından maraqlı olmuşdu. Çünki biz bütün medalları qabaqcadan özümüz almışdıq, Rusiya isə dünən hələ Misirlə oynamalıydı.

# Türkiyə ordusu Menbicdə

## Vaşinqton və Ankara arasında iyunun 4-də əldə olunmuş Menbic razılaşması əsasında rayon tədricən Türkiyə ordusunun nəzarətinə keçəcək



**İyunun 18-də Türkiyə ordusu hissələri Suriyanın şimalında kürdlərin nəzarətində olan Menbic rayonuna daxil olub. Yayılan ilk görüntülərdə Türkiyə ordusuna məxsus zirehli avtomobillərin bölgədə patrul gəzintisi apardığı görünür.**

Qeyd edək ki, Türkiyə və ABŞ arasında iyunun 4-də əldə olunmuş razılaşmaya əsasən Menbic 6 ay ərzində tədricən Türkiyə ordusunun nəzarətinə keçəcək, YPG silahlıları bölgədən çıxarılacaq. Bu anlaşma xarici işlər naziri Çavuşoğlu və dövlət katibi Pompeo arasında Vaşinqtonda imzalanıb. Maraqlıdır ki, iyunun 4-də Menbic rayonuna daxil olan Türkiyə ordusu hərbçiləri ABŞ ordusunun hərbi bazasının yerləşdiyi Dabat məntəqəsinə də daxil olub. Anadolu Agentliyi isə Türkiyə ordusunun ABŞ ordusu ilə birlikdə 3 saat ərzində patrul fəaliyyəti göstərdiyini qeyd edib.

Türkiyə ordusunun Menbicə daxil olmasını əks etdirən görüntülərin ardınca Türkiyə prezidenti və baş naziri açıqlama verib. Prezident Ərdoğan bəyan edib ki, Türkiyə ordusu Menbicdə patrul xidmətinə başlayıb. Xarici işlər naziri Çavuşoğlu bildirib ki, anlaşmaya əsasən Türkiyə ordusu 2016-cı ildə azad edilən "Fırat Kalkanı" bölgəsindən *("Fırat Kalkanı" əməliyyatı ilə azad edilən Aziz-Cerablus bölgəsi Menbiclə həmsərhəddir - K.R.)* Menbic rayonuna daxil olub. Çavuşoğlu deyib ki, hərbçilər tezliklə Menbicin mərkəzinə də daxil olacaq və razılaşmaya əsasən YPG silahlıları Menbici tərk edəcək.

"Türkiyənin Menbiçə daxil olması bizim üçün vətənə qayıdış deməkdir". Axar.az xəbər verir ki, bu sözləri Suriya Türkman Məclisinin sədri Məhəmməd Vacihə Cümə deyib.

"Böyük sevinc yaşayırıq, çünki vətənimizə, doğma torpaqlarımıza qayıdacağıq. Amma unutmayaq ki, "Zeytun budağı" hərəkatı olmasaydı, Menbiç əməliyyatı da olmazdı. PKK Menbiç xalqına zülm edirdi. Türkiyəyə, əsgərlərinə minnətdarıq. Onların sayəsində öz evlərimizə dönəcəyik.

ABŞ PKK-nı dəstəkləyirdi, amma nəhayət ki, Türkiyənin iradəsi qarşısında diz çökdü. Türkiyənin bu əməliyyatı ilə təkcə bölgə terrordan təmizlənməyəcək, həm də Suriyadakı siyasi prosesdə müəyyən irəliləyişlər olacaq", - o bildirib.

Suriya hökuməti ölkənin şimalında yerləşən Menbiçdə Türkiyə və ABŞ qüvvələrinin olmasından narazıdır.

Bu məlumatı Suriya Xarici İşlər Nazirliyi yayıb.

Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının yaydığı rəsmi açıqlamada isə daha əvvəl razılaşdırılmış Menbic "Yol xəritəsi" və Təhlükəsizlik Prinsipləri əsasında "Fırat Kalkanı" ərazisi ilə Menbic arasındakı xətdə Türkiyə ordusu və ABŞ ordusu hərbi birləşmələri tərəfindən müstəqil patrul fəaliyyəti başlayıb.

Qeyd edək ki, Fəratın qərb sahillərində yerləşən və Suriyanın Hələb vilayətinə daxil olan Menbic rayonu əsas ərəblərin yaşadığı region hesab olunur. 2014-cü ilin əvvəllərində Menbic İŞİD-in nəzarətinə keçib. Yalnız 2016-cı ildə ABŞ ordusunun dəstəyi ilə YPG silahlı birlikləri Menbici İŞİD-dən azad edib. Ancaq Türkiyə bu bölgədə kürd silahlı birliklərinin, xüsusən də YPG-nin bölgədən çəkilməsini tələb edib. Vaşinqton uzun müddət bu məsələdə Ankara ilə dil tapa bilmirdi. Yalnız uzun müzakirələrdən sonra bu ayın 4-də Vaşinqtonda Çavuşoğlu və Pompeo arasında Menbic mövzusunda anlaşma əldə olunub. Bu anlaşmanın hansı şərtlər hesabına əldə olunduğu məlum deyil. Anlaşmaya əsasən 3 mərhələli "Yol xəritəsi" qəbul olunub. Sənədə əsasən qarşıdakı 6 ay ərzində Menbicdən kürd silahlı birlikləri, xüsusən də YPG silahlıları çıxarılacaq. Planın birinci mərhələsi üzrə ön hazırlıq işləri aparılmalı, ikinci mərhələdə ABŞ və Türkiyə tərəfinin iştirakı ilə YPG silahlılarının bölgədən çıxarılması baş verəcək. Nəhayət, 3-cü mərhələdə ABŞ və Türkiyənin iştirakı ilə bölgədə təhlükəsizlik təmin olunacaq və Menbicdə yerli idarə orqanları formalaşacaq və yeri əhalinin evlərinə dönməsi təmin olunacaq.

Son hərəkətlilik onu göstərir ki, artıq planın birinci mərhələsi işə başlayıb. Bu hərəkətliliyin ön hazırlıq mərhələsinə daxil olduğu, yoxsa sadəcə, hazırlıq məqsədli patrul fəaliyyəti olduğu dəqiq deyil. Məlum olan odur ki, Türkiyə ordusu patrulu ilə yanaşı ABŞ ordusu, o cümlədən helikopterləri havadan patrul uçuşları həyata keçirib.

ABŞ Müdafiə Nazirliyinin yaydığı rəsmi açıqlamada Menbic yaxınlığında Türkiyə və ABŞ ordusunun müstəqil patrul fəaliyyəti həyata keçirdiyi qeyd olunub. Pentaqon sözçüsü patrul fəaliyyətinin Menbicin içərisinə daxil olmadığını, kənarda həyata keçirildiyini qeyd edib. Müdafiə naziri Ceyms Mattis də ötən həftə ABŞ və Türkiyə ordusunun regionda birgə patrul aparacağını təsdiqləyib. Nazir ilk dönəmdə hər iki tərəfin ayırıcı xətti müəyyən edəcəyini və daha sonra bu xətdə patrulu həyata keçirəcəyini, Menbicin daxilinə isə hələlik müdaxilə edilməyəcəyini bildirib.

Qeyd edək ki, Menbic əməliyyatı Türkiyə hökumətinin elan etdiyi təhlükəsizlik xəttinə daxildir. Ankara bu rayonu özü üçün təhlükəsizlik xətti elan edib. Bu mənada Menbic rayonuna Türkiyə əsgərlərinin daxil olması Ankaranın növbəti uğuru hesab olunur. Bu isə strateji addım olmaqla yanaşı, eyni zamanda seçki kampaniyası gedişində AKP bloku üçün böyük bir üstünlük mənasına gəlir.

**❑ Kənan RÖVŞƏNOĞLU,
"Yeni Müsavat"**

# "Rusiya qılıncı"na qarşı "Amerika qalxanı"?




# İrəvan kritik seçimə sürüklənir - Qərb Paşinyanı küncə sıxır

## ABŞ və Avropa Ermənistandakı inqilabla bağlı məyus durumda - mühüm gəlişmə; Fransa prezidenti Paşinyanı hələ də təbrik eləməyib - səbəb; **politoloq:** "Ermənistanı yeni qarşıdurmalar gözləyir..."

**Ermənistanın yeni populist baş naziri Nikol Paşinyan hakimiyyətə gəlişindən 40 gündən çox keçməsinə rəğmən, hələ ki öz komandasını formalaşdıra bilməyib. Paralel surətdə o, cinayətkar-terrorçuları (Jirayir Səfilyan və dəstəsi) bir-bir həbsdən azad edərək, yerinə başqa qəbildən cinayətkarları (hərbi cani Manvel Qriqoryan və s.) türməyə salmaqla məşğuldur. ABŞ və Avropa Birliyi (AB) timsalında Qərb isə ondan real islahatlar və Qərbə inteqrasiya yönündə praktik addımlar gözləyir.**

Maraqlıdır ki, zaman ötdükcə Qərbin Paşinyana ümid və etimadı azalmaqdadır. Bu ovqat İrəvanda keçirilmiş və Ermənistan-AB münasibətlərinin perspektivinə həsr olunmuş konfransda bariz şəkildə özünü büruzə verib. "Yeni Müsavat" erməni qaynaqlarına istinadən xəbər verir ki, həmin tədbirdə çıxış edən bir sıra avropalı diplomatlar (Avropa Birliyinin, Almaniyanın İrəvandakı səfirləri) bu xüsusda narahatlıqlarını gizlətməyiblər.

Erməni mənbələri yazır ki, diplomatlar yeni reallıqlar fonunda Ermənistandakı daxili situasiyadan və Paşinyan hökumətindən həyəcanlı bir tonda danışıblar və mövcud vəziyyəti "bütövlükdə proqnoz edilməyən və hələ ki qeyri-müəyyən" adlandırıblar. Siyasi müşahidəçilər bu həyəcanı əsassız hesab eləmirlər.

*****

Göründüyü kimi, Qərb yeni hökumətdən, nəhayət, real seçim, Ermənistanın Rusiya orbitindən uzaqlaşmasını gözləyir ki, qarşılığında vəd elədiyi maliyyə və digər dəstəyi verə bilsin. İndiki məqamda böyük maliyyə isə Paşinyan hökumətinə ac-yalavac əhalinin güzəranını qismən yaxşılaşdırıb öz daxili dayaqlarını möhkəmlətmək üçün hava-su kimi lazımdır.

Ancaq başqa yandan, Rusiya ilə ənənəvi siyasi-hərbi bağları Qərbin, NATO-nun xeyrinə zəiflətmək və ya qırmaq yeni hakimiyyətdən ötrü "olum, ya ölüm" məsələsi kimidir. Çünki Rusiya yaxında, Ermənistanın içində, Qərb, Avropa isə uzaqdadır. Erməni ekspert ictimaiyyəti də etiraf edir ki, Ermənistanın rusiyayönlü kursdan hətta azacıq kənara çıxıb oriyentirləri Qərbin, Amerikanın xeyrinə dəyişməsi işğalçı ölkəyə eyni anda bir yox, bir neçə istiqamətdən böyük təhlükələr vəd edir.

**1in.am erməni nəşri bu xüsusda maraqlı bir detala diqqət çəkib. "Yeni Müsavat"ın məlumatına görə, nəşr Fransa prezidenti Emmanuel Makronun hələ də Paşinyanı baş nazir seçilməsi münasibətilə təbrik etməməsinin müəmmalı olduğunu yazıb.**

"Avropalı diplomatların həyəcanına həm hakimiyyət, həm də cəmiyyət diqqət yetirməlidir, nədən ki, Ermənistanın Avropa siyasəti onların hər ikisinin məsuliyyət və qayğı çərçivəsində qalmalıdır. Bunu da anlamaq gərəkdir ki, narahatlıq yalnızca İrəvandakı diplomatik nümayəndələr səviyyəsində mövcuddur, yoxsa onlar Avropa paytaxtları səviyyəsindəki təlaşı ifadə edirlər? Yeri gəlmişkən, maraqlıdır ki, Ermənistanın yeni baş nazirini, 1 nömrəli məmurunu - Paşinyanı Ermənistandan ötrü, yumşaq desək, heç də təsadüfi olmayan bir dövlətin - Fransanın prezidenti bu günədək təbrik eləməyib. İrəvan yalnız Fransanın baş nazirinin təbrikini alıb. Bu kimi detalları görməzlikdən gəlmək olmaz, əks halda, mənzərə gözlənildiyindən də sürətli dəyişə bilər".

*****

**Bəs Paşinyan düşdüyü, daha doğrusu, özü özünü saldığı bu qəliz vəziyyətdən necə çıxacaq? Başı üstündə asılmış "Rusiya qılıncı"na qarşı "Amerika qalxanı" əldə edə biləcəkmi? Ən əsası, daxildə konsensusa nail olub, öz xalqına və Qərbə vəd elədiyi köklü islahatları necə reallaşdıracaq?**

**"Ermənistanı qarşıda daha ciddi qarşıdurmalar gözləyir, proseslərin daha da dərinləşəcəyi istisna edilmir". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri axar.az-a Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin sədri, politoloq Eldar Namazov Ermənistan və onun ətrafındakı hazırkı situasiyanı şərh edərkən bildirib.**

**Paşinyanın idarəçilik sahəsində heç bir təcrübəsinin olmadığına xüsusi diqqət çəkən politoloq daha sonra deyib:** "Paşinyanın parlamentdə hazırladığı proqramın təsdiq olunması zamanı çıxışından da görmək olur ki, bu insan populist, real idarəçilik təcrübəsinə malik olmayan, məsələlərə inqilabi əhval-ruhiyyə prizmasından baxan bir siyasətçidir. Paşinyan yaxşı məqalələr yaza, mitinqlərin aparıcısı kimi məşhurlaşa və öz populist çıxışlarını elə mitinq meydanlarında davam etdirə bilərdi. Ancaq hər kəs yaxşı bilir ki, mitinqləri idarə etməklə dövləti idarə etmək eyni məsələ deyil. Bu mənada Paşinyanın son dövrdə atdığı addımlar, bəzi kadr təyinatları hətta onu dəstəkləyən insanlar arasında çaşqınlıq yaradıb. Artıq onun təyin etdiyi nazirlərdən istefa verənlər də var".

**E.Namazov Paşinyanın həyata keçirdiyi siyasəti nəzərə alaraq, onun hakimiyyətinin növbədənkənar seçkilərin keçirilməsinə qədər davam etməmə ehtimalının çox olduğunu vurğulayıb:** "O cümlədən siyasi terrordan istifadə edən insanları həbsdən azad etmək Paşinyanın tərəfdarları arasında birmənalı qarşılanmadı. Çünki həmin hadisələr zamanı polis alayının binasına hücum təşkil olunmuşdu və orada bir neçə polis işçisi qətlə yetirilmişdi. Bu günlərdə keçirilmiş məhkəmə proseslərində bu hücumları həyata keçirənlərin azadlığa buraxılması həlak olan polis işçilərinin ailə üzvləri tərəfindən də etirazla qarşılanıb. Məsələlərə inqilabi prizmadan baxıb bu cür şəxsləri öz adamları kimi azad etmək heç bir hüquq normasına sığmır. Bundan əlavə, Paşinyana müxalifətdə olan Sərkisyan, Köçəryan, hətta üçüncü böyük fraksiyaya sahib Çarukyanın əlində milyardlarla dollar vəsait cəmləşib. Müxalifətin pulu hazırda iqtidarda olanların pulundan qat-qat çoxdur. Digər tərəfdən, iqtidarda olanların təcrübəsi də çox azdır. Bu isə hakimiyyətlə bağlı ciddi hadisələrin olacağından xəbər verir".

*****

Proseslərin gedişatı göstərir ki, ciddi hadisələr çox uzaqda deyil. Bunu indi hər şeydən öncə İrəvanın Qərb tərəfindən seçimə sürüklənməsi diktə edir...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**





# Müdafiə naziri cəbhə bölgəsində yeni hərbi hissəni açdı

**İyunun 19-da müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhə bölgəsində yeni inşa edilən Raket və Artilleriya Qoşunlarının hərbi hissəsinin açılışında iştirak edərək ərazidəki qərargah, döyüş texnikaları üçün saxlanclar, əsgər yataqxanası, yeməkxana, sıra meydanı və digər obyektlərlə tanış olub.**

Ali Baş Komandan cənab İlham Əliyevin qarşıya qoyduğu tapşırıqları bir daha xatırladan müdafiə naziri ordumuza göstərilən diqqət və qayğının nəticəsi olaraq əldə edilən uğurları da xüsusi vurğulayıb.

General-polkovnik Z.Həsənov Raket və Artilleriya Qoşunlarının döyüşə hazırlıq səviyyəsinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

Sonda şəxsi heyətlə birlikdə nahar edilib. Məlumatı Müdafiə Nazirliyinin mətbuat xidməti yayıb.

# Vyanada OPEK-in iclası başlayır-neftin qiyməti necə olacaq?

## Azərbaycanı energetika naziri Pərviz Şahbazov təmsil edəcək

**Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindonun dəvəti ilə energetika naziri Pərviz Şahbazov 21-23 iyun tarixlərində Avstriyanın paytaxtı Vyana şəhərində səfərdə olacaq.**

Energetika Nazirliyindən modern.az-a verilən məlumata görə, nazir Vyanada OPEC-in "Neft-Dayanıqlı gələcək üçün əməkdaşlıq" mövzusunda keçiriləcək 7-ci beynəlxalq seminarında iştirak edəcək.

Energetika nazirinin "Dünya iqtisadiyyatı üçün neftin gələcəyi" adlı beşinci sessiyada çıxışı nəzərdə tutulub. Bundan başqa, energetika nazirinin Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv və kartelə daxil olmayan ölkələrin Nazirlərinin Birgə Monitorinq Komitəsinin 9-cu iclasında da iştirakı planlaşdırılır.

P.Şahbazov Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) Nazirlər Şurasının 23 iyun 2018-ci il tarixində keçiriləcək 174-cü iclası çərçivəsində OPEC və qeyri-OPEC nazirlərinin 4-cü iclasına da qatılacaq.

Azərbaycan dünya neft bazarında tarazlığın və neftin qiymətinin sabitləşdirilməsi məqsədilə aparılan məsləhətləşmələrdə ilk vaxtlardan yaxından iştirakını davam etdirməkdədir.

Xatırladaq ki, 2016-cı il noyabrın 30-da OPEC üzrə gündəlik neft hasilatının 1,2 milyon barel azaldılaraq 32,5 milyon barelə endirilməsi barədə razılıq əldə olunub. Dekabrın 10-da isə Vyanada OPEC üzvləri ilə təşkilata daxil olmayan 11 ölkə, o cümlədən Azərbaycan ümumi hasilatın sutkada 558 min barel azaldılması barədə sazişə imza atıb. 25 may 2017-ci il tarixində OPEC Nazirlər Şurasının 172-ci iclası çərçivəsində Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv dövlətlər arasında neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin birinci rübünün sonunadək uzadılması barədə razılıq əldə olunub. Ötən ilin 30 noyabrında isə OPEC Nazirlər Şurasının 173-cü iclası çərçivəsində Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və kartelə daxil olmayan dövlətlərin nazirlərinin üçüncü görüşündə neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin sonuna kimi uzadılması ilə bağlı qərar qəbul olunub. OPEC və qeyri-OPEC ölkələrinin bu yeni razılaşmasına Azərbaycan da qoşulub.

YENİ MÜSAVAT
N 131 (7020) 20 iyun 2018

# "Dərnəgül" bazarı yandı- sahibkarlara 100 minlərlə ziyan dəydi

## 9 mağaza yanaraq kül olub, digər mağazalarda isə materiallar yararsız hala düşüb

**İyunun 29-da Bakıda Ziya Bünyadov prospektində "Dərnəgül" bazarı kimi tanınan ərazidə yanğın baş verib. "Dərnəgül" bazarında adətən taxta və digər tikinti materialları satılır. Elə hadisə də taxta satılan mağazaların birində baş verib. Yanğını söndürmək üçün əraziyə Fövqəladə Hallar Nazirliyinin 15 yanğınsöndürən maşını cəlb olunub. Hadisə ilə bağlı ilkin xəbərlər yayılan zaman Nərimanov Rayon İcra Hakimiyyəti başçısının I müavini Şahmar İbadov APA-ya bildirib ki, hadisə "Taxta bazarı"nın ərazisində qeydə alınıb və daha sonra yangın qonşuluqdakı dükanlara keçib.**





Yanğın nəticəsində qatı tüstünün yayılması, digər mağazalardakı satıcılar, ümumilikdə ərazidən keçənlər üçün də çətin anlar yaşadıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyi məlumat yayaraq bildirib ki, naməlum səbəbdən baş vermiş yanğın nəticəsində havaya qatı tüstü və qoxu yayılıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları dərhal hadisə yerinə gedib, monitorinq və araşdırma işlərinə başlayıb.

Mütəxəssislər atmosferə yayılan tüstü axını və qoxu ilə əlaqədar havanın çirklənmə səviyyəsini müəyyən etmək üçün sanitar-mühafizə zonasından xüsusi cihazlarla nümunələr götürüb. Götürülmüş nümunələr üzərində laborator analiz aparıldıqdan sonra nəticələr barədə məlumat veriləcək.

Əraziyə xeyli sayda polis nəfərləri də cəlb olunaraq, ciddi mühafizə tədbirləri alınıb.

Hadisə şahidlərinin virtualaz.org-a bildirdiklərinə görə, yanğın xırdavat bazarında qəflətən başlayıb və sonradan tikinti mağazalarına keçib.

Nəticədə tikinti materialı, boya, laminat, lambirin, taxta, istilik sistemləri satılan 9 mağaza yanaraq kül olub. Yanmayan mağazalarda isə materiallar yararsız hala düşüb.

Mağazalarda tezalışan materiallar satıldığından, yanğın tez bir zamanda ətrafa yayılıb. Mağaza sahibləri 100 minlərlə manatlıq zərər çəkdiklərini deyirlər.

**Yayılan rəsmi məlumatlarda isə aşağıdakılar bildirilib:**

"Bakı şəhərinin Nərimanov rayonunda ümumi sahəsi 1100 m olan ikimərtəbəli müxtəlif təyinatlı tikinti materialları mağazalarının dam örtüyünün yanar konstruksiyaları (içərisində olan tikinti materialları ilə birlikdə) və 720 $m^2$ sahədə açıq əraziyə yığılmış tikinti materialları yanıb".

Eyni gündə Bakıda Binəqədi rayonunda yerləşən "Nanəli" restoranında da yanğın baş verib. Yayılan rəsmi məlumatlara görə, Binəqədi rayonunda ümumi sahəsi 700 $m^2$ olan (hər mərtəbəsi 350 $m^2$, 1-ci mərtəbəsi müxtəlif təyinatlı obyektlər) 2-ci mərtəbəsində taxta konstruksiyalardan ibarət "Nanəli" restoranının yanar konstruksiyaları və içərisində olan əşyalar 198 $m^2$ sahədə yanıb. Obyektin qalan hissəsi yanğından mühafizə olunub. Yanğın yanğın bölmələri tərəfindən söndürülüb.

Son günlər Bakıda müxtəlif zavodlarda, obyektlərdə ard-arda yanğınlar baş verir. Məsələn, iyunun 3-də Binəqədi rayonunda zavod ərazisində təkər tullantıları yanıb. Qatı tüstü ilə müşahidə olunan yanğını Fövqəladə Hallar Nazirliyinin əməkdaşları çətinliklə söndürüblər. Hadisədən bir gün sonra yenə də Binəqədi rayonu ərazisində istismar müddəti bitmiş avtomobil şinləri yanıb. Yanğın 200 kvadratmetr ərazini əhatə edib. Yenə də iyunun 13-də Binəqədi rayonunda 1700 kvadratmetr olan boya istehsalı sexinin ərazisində güclü yanğın baş vermişdi...

**"Yeni Müsavat"a danışan ekspert Nüsrət Qasımov bildirib ki, bazarda baş verən yanğınla bağlı versiyalar müxtəlif ola bilər:**

"Ola bilər məsələ rəqabətlə bağlıdır. Kimsə, kimisə bazardan sıxışdırıb çıxarmaq istəyir. Əsas məsələ isə insan faktorudur. Əksəriyyət qazdan, işıqdan təhlükəsiz istifadə qaydasına riayət etmir. Nəticədə kənd yerlərində də ot tayaları, evlər yanır. Əvvəllər evlərdə indiki qədər elektriklə işləyən məişət əşyaları yox idi. Bu qədər məişət əşyası olduğu halda insanlar yeni ev tikən, təmir etdirən və ya elektrik şəbəkəsinə qoşulan zaman müvafiq "n" kəsiyində olan naqilləri düzgün seçmirlər. Yüklənmə nəticəsində naqillər qızır və yanma baş verir. Bundan əlavə, obyektlərin qarşısında yanğın şiti yoxdur. Bazarda yanğın baş verən zaman yanğın söndürən maşınlar evlərdən su axtarırmış. Əslində isə bazarın qarşısında xüsusi yanğın şiti, qum torbaları olmalıdır. Bunlar olsaydı, insanlar özləri yanğının qarşısını alardılar. Həyat üçün vacib elementlərə fikir verən yoxdur. Ona görə də ağır fəsadlar yaranır. Qaz balonunun partlaması hallarını da müşahidə edirik. Hazırda bu məsələ də bəlaya çevrilib. Propan qazını satırlar, ancaq balonların istismarına nəzarət edən qurum yoxdur. Bu balonlar ildə bir dəfə sınaq yoxlamasından keçirilməli, yüksək təzyiqlə yoxlanmalı, balonun keyfiyyəti ölçülməlidir. Bu kimi yoxlamaların heç biri aparılmır. Hətta maşınla daşıyan zaman balonların ortasına rezin üzlüklər taxılmalıdır ki, harasa dəyərsə, yanğın olmasın. Eyni zamanda balonları qoşan zaman da diqqət etmək lazımdır. Burada xüsusi məsafələr nəzərə alınmalıdır. Yay aylarında yanğın hadisələri daha çox baş verir. Çünki isti aylarda bütün yanmağa meylli materiallar quru olur. Adi qığılcım olan kimi yanğın hadisəsi baş verir. Qış aylarında isə materiallar nəmli olduğu üçün yanğınlar bir qədər az müşahidə olunur".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# "GünayBank"da 100 milyon oğurluq qalmaqalı-təfərrüat

## Bank rəsmiləri Emin Zeynalovun ölkədən qaçması ilə bağlı xəbərləri təkzib edir, amma...

**Azərbaycanda növbəti bank fırıldağının üstü açılıb. Belə ki, "GünayBank" ASC İdarə Heyəti sədrinin müavini Emin Zeynalovun bankdan 100 milyon manat götürərək ölkəni tərk etdiyi bildirilir. Belə məlum olur ki, E.Zeynalov "GünayBank"da rəsmi bankçılıq fəaliyyəti ilə yanaşı qeyri-leqal pul dövriyyəsi sxemi də təşkil edib.**




Virtualaz.org-un yazdığına görə, bu sxem üzərindən on milyonlarla dollar dövr elətdirib və üstəlik həmin pulları "Forex" beynəlxalq online valyuta mübadiləsi birjasında "fırladıb", amma bu əməliyyatlarda böyük pullar itirib: "Bankir Emin Zeynalovun 100 milyon manata yaxın pulla ölkədən qaçdığı barədə xəbərimizdən sonra "GünayBank" ASC-nin Müşahidə Şurasının sədri, xanımı Yeganə Şirinova ilə birlikdə bankın səhmlərinin 90 faizə yaxın hissəsinə nəzarət edən Mahmud Məmmədov saytlardan birində təkzib xarakterli bəyanatla çıxış edib. Bildirib ki, Emin Zeynalovun bankın pullarını götürüb qaçması yalandır, amma onun "xaricdəki biznes tərəfdaşları" qarşısında borcları olub və həmin borclar barədə eşidən kimi Zeynalovu vəzifədən uzaqlaşdırıb".

**Hadisə barədə məlumat verən mənbə sayta bildirib ki, E.Zeynalov "GünayBank" ASC-də vəzifəyə keçəndən sonra Bakıda müxtəlif imkanlı şəxslərdən milyonlarla manat yığaraq hesaba alınmamış vəsaitlər qismində bankda dövriyyəyə buraxıb:** "Bu qanunsuz pul dövriyyəsinin bankın Müşahidə Şurasının rəhbərinin xəbəri olmadan təşkil edildiyi ağlabatan hesab edilmir. Mənbə bildirir ki, bankda uçota alınmamış pulların dövriyyəsindən böyük gəlirlər əldə etmək mümkün olur".

Mənbənin bildirdiyinə görə, E.Zeynalovun Mahmud Məmmədova 15 milyon dollar borcu yaranıb. Həmin pulun 8 milyon dollarını onun atası ödəyib. Zeynalovun borclarının ümumi məbləği isə 60 milyon dollar, yəni 100 milyon manata yaxındır. Mahmud Məmmədovun pullarının bir hissəsini geri alandan sonra Zeynalovun barəsində hüquq-mühafizə orqanlarına məlumat verdiyi bildirilir.

Eyni zamanda E.Zeynalova pul verən şəxslər Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə şikayət ediblər.

**Baş verənlər göstərir ki, Azərbaycanda banklara nəzarət kifayət qədər zəifdir. Bank sahəsi üzrə mütəxəssis, hüquqşünas Əkrəm Həsənov deyir ki, belə hadisələr bank sektoru üçün adiləşib artıq:** "Belə hadisə yeni deyil. O mənada ki, zaman-zaman banklarda qeydiyyatsız dövriyyənin olmasına dair məlumatlar yayılıb. Hətta məndə olan məlumata görə, bəzi banklarda əmanətlər saxta sənədlərlə rəsmiləşdirilir, amma reallıqda qeydiyyata alınmır, heç əmanətçinin bundan xəbəri də olmur. Bu kimi hadisələrlə bağlı bir neçə dəfə cinayət işi də qaldırılıb, həbslər də olub".

**Ə.Həsənovun sözlərinə görə, qeyri-rəsmi dövriyyədən zərərçəkənlər bir çox hallarda rəsmi şikayət etmirlər:** "Pulunu qeyri-rəsmi dövriyyəyə etibar edən insanlar problem yarananda hüquq-mühafizə orqanlarına müraciət etməyərək başqa yollarla işi həll etməyə çalışırlar. Buna görə də biz digər banklarda da olan bu kimi hadisələr zamanı itirilən pulların miqdarı barədə məlumata malik olmuruq".

**Mütəxəssis hesab edir ki, bu hadisə Azərbaycanda bank nəzarətinin zəifliyini ortaya qoyur:** "Vaxtilə Mərkəzi Bankın, indi də Maliyyə Bazarlarına Nəzarət Palatasının deməli olar ki, heç bir bank nəzarəti yoxdur. Bank nəzarətinin nə üçün lazım olduğunu bilmək lazımdır. Məsələ burasındadır ki, digər biznes fəaliyyətlərinə bu cür nəzarət olmur. Banklara ona görə olmalıdır ki, öz vəsaitlərini deyil, əmanətçilərin, on minlərlə, yüz minlərlə insanın pulu ilə işləyirlər. Müflis bankların fəaliyyətinin təhlili göstərir ki, Azərbaycanda bank nəzarəti formaldır, böyük ehtimalla, korrupsiya var".

**Hüquqşünasın dediyinə görə, Mərkəzi Bankın dövründə işlə peşəkarlar məşğul olurdular, indi isə qeyri-peşəkarlar:** "Maliyyə Bazarlarına Nəzarət Palatasının faktiki rəhbəri İbrahim Abışovun bank sahəsində ciddi bir peşəkar, təcrübəli mütəxəssis olduğunu söyləmək qeyri-mümkündür. Ona görə də bankların fəaliyyətinə nəzarət zəifləyib. Belə hallar banklara olan inama ciddi zərbə vurur, əmanətlərin geri çəkilməsinə səbəb olur. Bütövlükdə bank sektoru üçün ciddi zərbədir".

**Ə.Həsənovun fikrincə, E.Zeynalov cinayət əməlini təkbaşına törədə bilməzdi:** "Bu adam o işi təkbaşına edə bilməzdi. Mütləq bankın başqa rəhbər şəxsləri də dindirilməlidir. "StandarBank"da bütün günahları atırlar hazırda ölkədə olmayan Səlim Krimanın üzərinə, halbuki onun 1 milyard manatı təkbaşına dağıtması mümkün deyildi. Nə haləttdirsə, belə bank fırıldaqlarında suçlanan şəxslərin hamısı ölkədən qaçmış olur, geri qaytarılması mümkün olmur. Yalnız Cahangir Hacıyev törətdiyi əmələ görə həbs edilə bilib..."

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Keçən həftə Ermənistan prezidenti Armen Sərksiyan və baş nazir Nikol Paşinyan bir-birinin ardınca işğal altındakı Dağlıq Qarabağa səfər etdilər. Heç şübhəsiz ki, bu qanunsuz səfərləri şərtləndirən səbəblərdən biri işğalçı ölkədə ötən ay baş vermiş hakimiyyət çevrilişindən sonra yaranmış qeyri-müəyyən vəziyyətdən yeni rəhbərliyin narahatlığı ilə bağlıdır. Düşmən ölkənin başçıları yaranmış durumda yeni silahlar alıb öz hərbi potensialını daha da artıran Azərbaycanın hər an aprel sindromunu təkrarlaya biləcəyindən xüsusilə ehtiyatlanmağa başlayıblar.**




Sergey Markedonov

# Aprel sindromu hər an təkrarlana bilər - güc amili önə çıxır

## Erməni prezident və baş nazirin Qarabağa son qanunsuz səfərlərində məqsəd; **rusiyalı politoloq Ermənistanın yeni rəhbərliyinə xəbərdarlıq elədi:** "İstənilən erməni siyasətçisi Rusiya ilə hesablaşmaq zorundadır..."

Əslində buna əsaslar var. Özü də həmişə. Xüsusən də Naxçıvan istiqamətində ordumuzun irəliləyərək 11 min hektar ərazini azad eləməsi işğalçı ölkənin rəhbərliyinə ciddi siqnal hesab olunmalıdır. Siyasi təhlilçilərin bu xüsusda şərh və proqnozlarını təqdim edirik.

*****

**"Ermənistanın səlahiyyətli şəxslərinin işğal olunmuş Azərbaycan ərazilərinə səfəri birmənalı təxribat xarakteri daşıyır. Təbii ki, bu təxribatların əsas məqsədi də bir növ vəziyyəti müharibə həddinə gətirib çıxarmaqdan ibarətdir". "Yeni Müsavat"ın məlumatına görə, bunu axar.az-a açıqlamasında sabiq xarici işlər naziri Tofiq Zülfüqarov deyib.**

**Onun sözlərinə görə, hazırda Ermənistanın daxilində müxtəlif proseslər gedir.** "Biz bu proseslərdən az-çox xəbərdar olsaq da, çoxunu bilmirik. Fikir verin, gah kimisə həbs edirlər, gah da vəzifədən uzaqlaşdırırlar. Görünən odur ki, işğalçı ölkənin daxilində ciddi çəkişmələr mövcuddur. Paşinyan da təbii ki, hakimiyyəti tam mənimsəməyə çalışır. Hesab edirəm ki, Azərbaycanın mövqeyi birmənalıdır. İstər Ermənistanın adi vətəndaşları, istər vəzifəli şəxsləri, istərsə də güc strukturları olsun, onların Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz səfər etmələri birbaşa cinayətdir. Bu cinayət isə, gec və ya tez, müharibəyə gətirib çıxaracaq. Heç bir dövlət işğal edilmiş ərazilərinə qanunsuz səfərlərin bu cür davam etdirilməsinə icazə verə bilməz", - deyə eks-diplomat qeyd edib.

**Politoloq hesab edir ki, indilikdə Ermənistan tərəfindən Azərbaycanla təmas və danışıqları kimin aparacağı hələ bəlli deyil:** "Hazırda orada qeyri-stabil bir vəziyyət hökm sürür. İkincisi, Ermənistan işğalçı siyasətini davam etdirir. Əslində Paşinyanın Rusiyadan qayıtdıqdan sonra və ya əvvəl Qarabağa gəlməsi heç bir fərq etmir. Bu, faktiki olaraq Azərbaycanı açıq şəkildə müharibəyə və hərbi əməliyyatlara təhrik edirlər".

*****

**"Naxçıvandakı son hərbi əməliyyatlardan və Azərbaycan ordusunun keçirdiyi təlimlərdən sonra Ermənistan siyasi rəhbərliyi təlaş içərisindədir". Bunu isə politoloq Qabil Hüseynli məlum qanunsuz səfərləri şərh edərkən deyib. O bildirib ki, Azərbaycanda xüsusilə raket qoşunları birləşmələrinin yaradılmasından sonra Ermənistan tərəfinin narahatlıqları artıb:** "Bu, həm də Müdafiə Nazirliyinin Azərbaycanda kosmik sahə ilə bağlı olan, yüksək texnologiyanı özündə əks etdirən yeni bir döyüş hissəsidir. Azərbaycan öz ordusunu təkmilləşdirir, eyni zamanda torpaqlarını azad etmək üçün yorulmadan çalışır. Son Naxçıvan əməliyyatlarından sonra Ermənistanda əhali arasında böyük təşviş yaranıb. Azərbaycan ordusunun Naxçıvanda 11 min hektar ərazini azad etməsi Paşinyanın siyasətinin səriştəsizliyi kimi qiymətləndirilir. Artıq erməni əhali arasında da Paşinyanla bağlı tənqidi fikirlər formalaşmaqdadır. Açıq-aşkar bunu Paşinyanın proseslərə nəzarət edə bilməməsi və təcrübəsizliyi ilə ölçürlər".

**Politoloqun qənaətincə, düşmənin Qarabağda olan həm döyüş komandirlərindən, həm də əsgərlərin müəyyən hissələrindən ciddi narahatlıqları var.** "Bu səbəbdən də Paşinyan Dağlıq Qarabağ bölgəsindəki döyüş bölgələrini gəzir və qondarma rejimin rəhbərliyi ilə görüşlər keçirir. Hər iki səfər yoxlama məqsədi daşıyır. Bununla Paşinyan döyüş meydanlarında yeni bir zərbə almaqdan qorxaraq, erməni tərəfinin mövqelərini gücləndirməyə çalışır".

Politoloqun sözlərinə görə, Azərbaycan ordusunun yeni hücumu, yeni bölgələrin ələ keçirməsi Paşinyan rejiminin süqutuna gətirib çıxara bilər.

*****

Bu, sözsüz ki, belədir. Belə bir perspektiv isə şəksiz ki, Ermənistanda təzəcə hakimiyyətə gəlmiş və hər ikisi qərbyönlü sayılan prezident Armen Sərkisyan və Nikol Paşinyanı ciddi şəkildə narahat etməyə bilməz. Bu fonda Rusiya amili əlbəttə ki, heç vaxt olmadığı qədər önəm kəsb edir - ilk növbədə işğalçı ölkənin indiki rəhbərliyi, ən çox da inqilab sayəsində müxalifətdən iqtidara çevrilmiş baş nazir Paşinyan üçün.

"Bir şəxs müxalifətdən iqtidara çevrilirsə, o zaman hər şey başqa cür qurulur. Ancaq hakimiyyət sükanı arxasında istər Sərkisyan olsun, istərsə də Paşinyan və ya başqası, bir fakt dəyişməz qalır - Ermənistanın 4 sərhədindən ikisi bağlıdır. Ermənistanın iki qonşusu ona dost münasibətdə deyil. Bu, 10 milyonluq Azərbaycan və 80 milyonluq Türkiyədir. Türkiyə NATO-nun üzvüdür, Ermənistan isə alyansın üzvü ola bilməz. Həm Türkiyənin, həm də Ermənistanın Avropa Birliyində üzvlüyü ağlabatan deyil. Xoşagələndir, ya yox, Rusiya mühüm oyunçu olaraq qalır və Ermənistanda istənilən siyasətçi bunu nəzərə almalı olacaq".

"Yeni Müsavat"ın məlumatına görə, bu sözləri rusiyalı **politoloq Sergey Markedonov** 1 in.am erməni nəşrinə müsahibəsində İrəvan-Moskva əlaqələrinin mümkün perspektivini və Paşinyana Kremlin münasibətini şərh edərkən deyib.

**Politoloq Nikol Paşinyanın Dağlıq Qarabağdakı separatçı rejimi birbaşa danışıqlara qoşmaqla bağlı tələbinə də münasibət bildirib.** "Bu imkan bir çox parametrlərlə məhdudlaşıb. Hansısa məqamda, bəli, belə bir iştirak olub, ancaq imkan itirilib. İndi onu avtomatik şəkildə bərpa eləmək mümkün deyil. Çünki siz eyni suya iki dəfə girə bilməzsiniz. Belə ideyalar olacaq. Amma hətta Ermənistanın öz daxilində də bu, müxtəlif cür qəbul olunur, diskussiya gedir. Moskvaya gəlincə, artıq Lavrov (xarici işlər naziri - red.) kifayət qədər dəqiq reaksiya verib: Moskva əleyhinə deyil, ancaq bu, münaqişə tərəflərinin müzakirə edə biləcəyi mövzudur", - deyə politoloq erməniləri faktiki, məyus edib.

**Konfliktin yaxın perspektiv üçün həll ehtimalından danışan Markedonov deyib:** "Bir paradoks var - həm Bakıda, həm də İrəvanda tez-tez deyirlər ki, biz müstəqilik, eyni zamanda bildirirlər ki, Qarabağ konfliktinin açarı Moskvadadır. Belə olmur. Siz ya müstəqilsiniz, ya da açar Moskvadadır. Ancaq açar Moskvada deyil. Moskva yalnız kömək edə bilər, o, problemi Bakı və İrəvanın yerinə çözməyəcək. Bu, məsuliyyətdir və Rusiya bu məsuliyyəti öz üzərinə götürməyəcək. Bu, dəqiq şəkildə bəyan edilib".

**"Bəs Bakı və İrəvan yaxın zamanlarda hələ bağlı dil tapa biləcəkmi" sualına rusiyalı politoloqun cavabı belə olub:** "Həll nə deməkdir? Siz Qarabağ üçün öz müqəddəratı təyinetmə istəyəcəksiz. Azərbaycanda isə belə hesab eləmirlər. Yəni hər şey çox qəlizdir. Biri "ağ" deyir, o biri "qara". Onları necə birləşdirmək olar? Mürəkkəb məsələdir".

*****

Əslində Markedonov "açar Moskvada deyil" deməklə blef edir. Çünki az qala uşaq da bilir ki, konfliktin açarı məhz Kremldədir. O anlamda ki, Rusiyanın münaqişənin həllinə köməyi o yana dursun, konfliktə qarışmamasının özü yetər ki, onun həlli tezləşsin. O halda özünü arxa-dayaqsız hiss edən işğalçı Ermənistana qarşı Azərbaycanın hərbi güc tətbiq etməsinə belə lüzum qalmayacaq. Yaxud Azərbaycanın 2016-cı ilin aprelindəki kimi bir-iki uğurlu lokal hərbi əməliyyatı işğalçı tərəfi ədalətli sülhə gətirmək üçün tam kifayət edəcək...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 131 (7020) 20 iyun 2018

# Gürcüstanın Azərbaycana dönüklüyünün pərdəarxası

## Elçin Mirzəbəyli: "Rəsmi Tiflis bu addımları könüllü atmır"

**Gürcüstan Azərbaycana qarşı xəyanətkar mövqe sərgiləməkdə davam edir. Son günlərdə rəsmi Tiflisin ölkəmizi ciddi şəkildə narahat edən bir sıra addımlar atması narahatlıq yaratmaya bilmir. Marneuli rayonunun azərbaycanlı icra başçısı Temuz Abazovun saxlanılması və ardınca Gürcüstan Vahid Milli Hərəkat Partiyasının azərbaycanlı deputatı Azər Süleymanova qarşı cinayət işinin açılması Azərbaycana qarşı qonşu ölkənin əsl niyyətini ortaya qoyur.**



Gürcüstanın bir dövlət kimi ayaqda qalmasında əsas rol oynayan Azərbaycanın bu ölkə ilə bağlı siyasətinə yenidən baxması yönündə səslənən fikirlər durmadan artır. Ermənistan-Azərbaycan münaqişəsində rəsmi Tiflisin ikibaşlı mövqeyinə dur deməyin zamanının çatdığı qeyd olunur.

Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili də buna dair mövqe sərgiləyib. O, "Yeni Müsavat" Media Qrupuna daxil olan minval.az saytında son hadisələrlə bağlı yazısını onun öz facebook səhifəsində paylaşıb. Belə düşüncələr var ki, Saakaşvili hakimiyyətdə olardısa, gürcü iqtidarı Azərbaycana qarşı bu cür mövqedə olmayacaqdı.

**Politoloq Elçin Mirzəbəyli bildirdi ki, Gürcüstanda ən müxtəlif maraqlar kəsişir:** "Bu ölkənin hökuməti də, onun yürütdüyü siyasət də çoxvektorlu yanaşma tələb edir. Məsələyə yalnız rəsmi Tiflisin ölkəmizə qarşı münasibəti kontekstindən yanaşmaq doğru olmazdı. Çünki Gürcüstanın hakim komandasının özü belə yekdil deyil, ayrı-ayrı və bir çox hallarda qütbləşən maraqları təmsil edir. Bu maraqlar arasındakı ziddiyyətlər dərinləşəndə Gürcüstanın daxili siyasətində də çatlar əmələ gəlir. Adətən gürcü siyasətçiləri bu çatları çoxsaylı manevrlər hesabına "yamamağa" çalışırlar. Gürcüstan istər Azərbaycan, istərsə də bu ölkənin ərazisindən keçən enerji və nəqliyyat layihələrində iştirak edən ölkələr və transmilli şirkətlər üçün mühüm strateji əhəmiyyət kəsb edir. Gürcülər bunu yaxşı başa düşür və vaxtaşırı Azərbaycanın enerji resursları və təşəbbüsləri hesabına yiyələndikləri strateji statusdan yararlanmağa çalışırlar. Lakin bu statusun Gürcüstan üçün üstünlükləri olduğu kimi, rəsmi Tiflisin manevr inkanlarını məhdudlaşdıran tərəfləri də var. Məsələn, Gürcüstan Ermənistanla bağlı münasibətlərində Azərbaycanın mövqeyini nəzərə almaq məcburiyyətindədir. Rəsmi Tiflis şübhəsiz ki, bunu könüllü etmir. Əgər Azərbaycanın israrlı mövqeyi olmasaydı, Gürcüstan Ermənistanla daha sıx əlaqələr qurar, hətta münasibətləri strateji müttəfiqlik müstəvisinə qaldıra bilərdi. Unutmaq lazım deyil ki, 2017-ci ilin noyabrından Gürcüstanla Rusiya arasında Abxaziya və Cənubi Osetiyaya gedən nəqliyyat dəhlizlərinin açılması ilə bağlı danışıqlar intensivləşib. Bu danışıqlar hələ 2011-ci ildən, Mixail Saakaşvilinin prezidentliyi dönəmindən başlayıb. Bu isə sübuta yetirir ki, Ermənistanı blokadadan xilas edəcək nəqliyyat dəhlizinin açılmasında təkcə Rusiya və bu ölkənin nüfuz müvəkkilləri maraqlı olmayıb. Həmçinin bu müstəvidə danışıqların İsveçrənin iştirakı ilə aparıldığı və tranzitə İsveçrənin SGS monitorinq şirkətinin nəzarət edəcəyi perspektivini də nəzərə almaq lazımdır. Xatırladım ki, Türkiyə-Ermənistan sərhədlərinin açılması və kommunikasiyaların bərpasını, eləcə də yenilərinin yaradılmasını nəzərdə tutan Sürix protokollarının icrası prosesində də SGS monitorinq şirkətinin iştirakı nəzərdə tutulurdu. Bu isə o deməkdir ki, Ermənistanın işğala son qoymadan blokadadan xilas olması ilə bağlı proses vahid bir prosesdir və burada Rusiya ilə yanaşı Qərbin də maraqları var. Görünür, Gürcüstan da bu müstəvidə hər iki qütbün maraqlarını təmin etməyə, həmçinin Rusiya, Ermənistan və İran vasitəsilə özünə alternativ mənbələr tapmağa çalışır. Xatırlayırsınızsa, 2016-cı ilin yanvarında İranın təbii qaz ixracı üzrə milli şirkətinin direktoru Əli Rza Kameli İran qazının Ermənistan ərazisindən keçməklə Gürcüstana ixrac edilməsi ilə bağlı ilkin razılığın əldə olunduğunu bəyan etmişdi. Bu sırada Gürcüstan hökumətinin Rusiyanın "Qazprom" şirkəti ilə apardığı danışıqları və baş verənlərə Azərbaycanın münasibətini də unutmaq lazım deyil. Gürcüstan hökuməti çalışır ki, öz ərazisindən ən müxtəlif qütblərin maraqlarını ifadə edən çoxsaylı enerji və nəqliyyat dəhlizlərinin keçməsinə nail olsun. Bundan sonra isə Azərbaycana və təbii ki, Azərbaycanın yeganə strateji müttəfiqi olan Türkiyəyə öz şərtlərini diktə etsin. Azərbaycan və Türkiyənin səyləri nəticəsində rəsmi Tiflisin bu davranışlarının qarşısı alınanda isə biz qəzəbli münasibətin şahidi olmağa başlayırıq".



**Politoloq onu da qeyd etdi ki, Gürcüstanla bağlı siyasətimizdə doğrular da, yanlışlar da var:** "Ən böyük yanlışlıq diaspor quruculuğu müstəvisində baş verib. Eyni zamanda bu ölkənin iqtisadiyyatına yatırımlarla bağlı da strateji boşluqlara yol vermişik. Batumda, Tiflisdə və digər bu kimi ərazilərdə turizm sektoruna, istehsal müəssisələrinə qoyulan yatırımların daha çox azərbaycanlıların yaşadığı ərazilərə qoyulmasını təşviq olunmalıydı. Gürcüstanda, öz tarixi vətənlərində yaşayan soydaşlarımızın köç etməməsi, Azərbaycana üz tutmamaları üçün strateji addımlar atılmalıydı. Şübhəsiz ki, bu istiqamətdə müəyyən addımlar atılıb, amma yetərli olmayıb. Digər tərəfdən, Gürcüstandakı Azərbaycan diasporunun təşkilatlanması istiqamətində ciddi boşluqların yaranmasına imkan verilib. Bəzi qonşu dövlətlərin dini və digər zəminlərdə diaspora daxilində ziddiyyətlər yaratmasına göz yumulub. Yaxud bununla bağlı ciddi təhlillər aparılmayıb. Kampaniya xarakterli addımlar atılıb, dələduzlarla, əhali arasında heç bir nüfuzu olmayan şəxslərlə əməkdaşlıq edilib. Bütün bunlara görə kimsəni ittiham etmək niyyətində deyiləm. Bu mənim birbaşa əldə etdiyim informasiyalar nəticəsində gəldiyim qənaətdir. Hesab edirəm ki, bütün bu boşluqların aradan qaldırılması üçün ciddi imkanlar var və bu istiqamətdə müsbət irəliləyişlərin baş verəcəyinə ümid bəsləyirəm. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun ilk səfərini Gürcüstana etməsini və burada çoxsaylı görüşlər keçirməsini də alqışlayıram. Bu, doğru seçim və doğru yanaşmadır. Gürcüstanla bağlı siyasətimizi dəyişməyə isə ehtiyac yoxdur. Azərbaycanın bu ölkə ilə bağlı strategiyası doğrudur. Sadəcə, bu strategiyanın olduğu kimi, heç bir korporativ marağa yol verilmədən dəqiq şəkildə icra edilməsinə ehtiyac var. Həmçinin hesab edirəm ki, Gürcüstanla əməkdaşlığın bütün istiqamətləri ciddi şəkildə təhlil olunmalı, haqqında açıq danışa bilmədiyim çoxsaylı proqramlar hazırlanmalı və həyata keçirilməlidir".

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli Gürcüstanın mövcud siyasətindən təəccüblənmir:** "Son dönəmlər Gürcüstan da Ukrayna kimi oyuncaq dövlətə çevrilib. Adamların daxili siyasəti kimi xarici siyasəti də bərbaddır. Azərbaycanın əlində Borçalı reallığı var. Təəssüf ki, bu reallıqdan ya istifadə etmirik, ya istifadə etməkdən çəkinirik. Gürcüstan artıq 2000-ci illərin lap əvvəllərindəki kimi Azərbaycandan asılı deyil. Ona görə də bizi rahatca xərcləyə bilirlər. Amma biz hələ də gürcülərə təzyiq edə bilərik. Bunun üçün gərək Borçalı türklərini səfərbər edib, gücə çevirib, Gürcüstan siyasətinə təsir etmək mexanizminə çevirməliyik. Ondan sonra görün gürcülər ağıllanıb necə ayaqlarımıza gələcəklər. Şevarnadze, Saakaşvili, İvanaşvili ilə indiki dişsiz Gürcüstan hakimiyyətini müqayisə etmək olmaz. Amma onların vaxtında belə Borçalı türkləri ən hüquqsuz millət idi. İndi də belədir. Ermənistan Çevaxetiya ermənilərini həmişə rıçaq kimi Tiflisə qarşı istifadə edir. Amma nədənsə Azərbaycan heç vaxt Borçalı türklərini müdafiə etməyib. Bu nöqsanımızı aradan qaldırmalıyıq. Əks halda, bir azdan Gürcüstan daha çox Azərbaycana qarşı quduracaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Elçibəy həftəsinə start verildi

## İyunun 24-ü Əbülfəz Elçibəyin Fəxri Xiyabandakı məzarı ziyarət olunacaq

**"Elçibəy 80" İctimai Təşkilat Komitəsinin təşəbbüsü ilə Elçibəy həftəsinə start verilib. Bu barədə komitənin sədr müavini, zamanında Elçibəyin köməkçisi olmuş Oqtay Qasımov məlumat verib.**



Onun sözlərinə görə, Təşkilat Komitəsinin planladığı əsas tədbir 22 iyun saat 10:30-da Beynəlxalq Mətbuat Mərkəzinin böyük zalında keçiriləcək: "Təntənəli yığıncağa dəvətlilərdən başqa, hər kəsə giriş sərbəst olacaq. Tədbirin vaxtı 3 saat nəzərdə tutulub. Bundan əlavə, iyunun 24-ü saat 10:30-da Təşkilat Komitəsinin təklifi ilə Əbülfəz Elçibəyin Fəxri Xiyabandakı məzarı ziyarət olunacaq.

Təşkilat komitəsinin sədr müavini onu da qeyd edib ki, iyunun 15-də "Elçibəy-80" yazı müsabiqəsi yekunlaşıb: "Müsabiqəyə 44 yazı təqdim olunub. Yazılar münsiflər heyəti tərəfindən yoxlanılır. Əsas müəlliflər Azərbaycandandır, amma Türkiyədən də yazanlar var. Elçibəy həftəsində yazı müsabiqəsinin qalibləri də elan olunacaq. Həmçinin Əbülfəz Elçibəyin əsərlərinin yenidən çap olunmuş kitabının təqdimatı da keçiriləcək".

**O.Qasımov bildirib ki, bundan başqa, bəzi təşkilatların tədbirləri də nəzərdə tutulub:** "İyunun 17-də Klassik Xalq Cəbhəsi Partiyası Əbülfəz Elçibəyin 80 illiyi ilə bağlı tədbir keçirdi. İyunun 20-də Müsavat Partiyasının, Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının tədbirləri keçiriləcək. Habelə rayonlarda da Əbülfəz Elçibəyin 80 illik yubileyi ilə bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulub".

❑ **Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 131 (7020) 20 iyun 2018

**Gədəbəydə meşələr kütləvi şəkildə "yaşıl soyqırım"a məruz qalır. Rayonun Novo-Saratovka kəndinin yaxınlığındakı meşə bu səbəbdən sıradan çıxmaq üzrədir. Reportyor qrupumuz meşədə müşahidə apararkən çoxillik ağacların kəsilib doğranması, kötüklərinin gizlədilməsi üçün torpaqla örtülməsinin şahidi olub.**

# Gədəbəy meşələrində gecə qırğınları-reportaj

## Rayonun Yenikənd, Çobankənd, Novo-İvanovka, Şahdağ, İnəkboğan, Əyrəvənk və Hacı Qasımlı kəndlərində qaz yoxdur; sakinlər yaşıllıqların vəhşicəsinə qırılmasını məhz bu problemlə əlaqələndirir















Meşələrdə çoxillik ağacların məhv edilməsində yandırılma üsulundan da istifadə edilir. Bu üsul canlı bir ağacın kötüyünə quru ağac qırıntıları yığıb yandırmaqdan ibarətdir. Beləcə, mişarla doğranması çətin olan çoxillik ağac yandırılıb yerə aşırılır, doğranır və meşədən daşınır. Digər üsullardan fərqli olaraq belə məhvetmə zamanı ağacın yenidən boy verməsi mümkün olmur. Gədəbəy meşələrdə məhz bu qəddar məhvetmə üsulu geniş yayılıb. Hər tərəfdə yanmış ağac gövdələrinin şahidi olduq.

Ermənistanla sərhəddə yerləşən bu yerlərdə meşələrin sürətlə məhv edilməsinin bir səbəbi də təbii qaz problemidir. Rayonun Yenikənd, Çobankənd, Novo-İvanovka, Şahdağ, İnəkboğan, Əyrəvənk, Hacı Qasımlı kəndlərində qazlaşma aparılmayıb. Sakinlər yaşıllıqların vəhşicəsinə qırılmasını da məhz bununla əlaqələndirirlər. "Yeni Müsavat"ın reportyor qrupu olaraq həmin kəndlərdə olduq.

İllər öncə bu kəndlərin qazlaşdırılması planı olsa da, hətta bunun üçün qaz boruları kəndlərə gətirilsə də, işlər yarımçıq dayandırılıb. Sonradan nəinki bu plan həyata keçirilib, hətta həmin qaz boruları ya satılıb, ya da kəndlərdən naməlum istiqamətə aparılıb.

Kənd sakinləri vəzifəsindən azad edilən rayonun keçmiş icra başçısı Ramiz Yediyarovun sərhəd kəndlərinin qazlaşdırılmasının qarşısını aldığını söylədilər. Onlar icra başçısının qeyri-rəsmi tapşırığı ilə əvvəllər kəndlərə qazlaşma üçün gətirilən boruları kəndlərdən daşıtdırıb satdırdığını deyirlər. Bildirirlər ki, Ramiz Yediyarov rayona rəhbərlik etdiyi müddətdə Gədəbəyin iki kəndi - Saratovka və İvanovka arasındakı şamlıq meşəsi "can vermək" həddinə çatıb.

Kənd sakinlərindən Həsən deyir ki, meşələrin məhv edilməsində rayona rəhbərlik edənlər günahkardır. Onun sözlərinə görə, Ramiz Yediyarov vəzifəyə təyin ediləndən sonrakı dövrdə Gədəbəydə meşələrin sistematik qırılmasına başlanıb, bu qanunsuz əməllərə qarşı çıxan meşə gözətçiləri ya işdən çıxarılıb, ya da susdurulublar. Belə meşə gözətçilərindən biri də Şahdağ kənd sakini Zaman Əsgərov olub. Saratovka meşəsində meşə gözətçisi işləmiş bu şəxs günlərin birində meşədən 30-dan yuxarı ağacın kəsilərək oğurlanmasını görüb. Hər şey də bundan sonra başlayıb. Zaman Əsgərov bu barədə Gədəbəy Rayon Meşə İdarəsinə yazılı məlumat verib və kəsilən ağacların siyahısını təqdim edib. Meşə gözətçisinin qanunun tələb etdiyi tərzdə davranması Ramiz Yediyarovun xoşuna gəlməyib. Onu ağacların kəsilməsini rəsmiləşdirdiyinə görə əvvəl danlayıblar. Bir neçə aydan sonra həmin kəsilən ağaclara görə işdən qovublar, ayağına da cərimə yazıblar. Zaman Əsgərovun məsələnin ədalətlə araşdırılması tələbləri də qulaqardına vurulub. Gədəbəy meşələrində Ramiz Yediyarov vəzifədə olduğu dövrdə tam dərəbəylik hökm sürüb. O və ətrafında olan məmurlar özlərinə dəbdəbəli villalar ucaldarkən taxta-şalban üçün tikinti bazarlarına deyil, Gədəbəy meşələrinə üz tutublar. Tikintidə istifadəsi əlverişli sayılan şam ağacları beləcə qırılıb və yük maşınlarına doldurulmaqla müxtəlif məmur villalarına daşınıb. Əsasən gecələr Gədəbəy meşələri "məmur quldurlar"ın hücumuna məruz qalırlar. Sakinlər deyir ki, gecənin qaranlığında meşələrdə canavar-çaqqal səslərini ağır tonnajlı yük maşınlarının mühərrikindən çıxan nərilti batırır. Hamı bilir ki, meşəni qırır, daşıyıb aparırlar. Amma kimsə sinəsini qabağa verib "yaşıl soyqırım"ı durdura bilmir. Səbəb də sadədir. Ramiz Yediyarovun meşə qırğınına yandırdığı "yaşıl işıq"dan doğan cəzasızlıq mühiti onun işdən qovulmasından sonra da davam etməkdədir. Belə ki, meşə gözətçiləri Zaman Əsgərovun yolu ilə gedib işsiz qalmaq istəmirlər. Yerli sakinlər deyir ki, bir çox hallarda belə meşələrə gecə hücumlarında bələdçilər elə həmin meşə gözətçiləri olur. Onların hərəkətsizliyinə əmin olan məmurlar meşələrlə şəxsi dükan-bazarları kimi davranırlar.

Meşələr qırılır, tikinti materialı şəklinə salınmaq üçün yararsız ağaclar ətraf kəndlərdəki evlərdə yaşayan sakinlərə satılır. Üstəlik, sakinlərə satılan ağacların meşədən gecə saatlarında daşınması tapşırılır. Bu şəkildə evinə odun gətirmək sakinlərə daha ucuz başa gəlir deyə kimsə baş verənlərə etiraz etmir. Kənd sakinləri deyir ki, bir maşın odun ən yaxşı halda 220 manata başa gəlir. Məmurların gizli sexlərində odun şəklinə salınan ağac parçalarının bir maşını isə 280 manatadır.

"Meşə yaxınlığında yaşayan sakin meşədən lobya becərilməsi üçün balaca bir çubuq kəsib apara bilmirsə, məmur bir maşın odunu necə satır", - sualı da açıq olaraq qalır.

Ermənistanla həmsərhəd kəndlərdə qazlaşmanın aparılacağı təqdirdə meşələrin qırğından "azad olacağı" da açıq şəkildə görünür. Sakinlər qapılarına odun gətirib, qışa hazırlıq görməyin asan olmadığını deyirlər. Bunun əziyyətli olduğunu, sadəcə, qazın olmaması ucbatından məcbur qaldıqlarını bildirirlər.

Onu da qeyd edək ki, rayonun digər sərhədyanı kəndləri illər öncə qazlaşdırılıb. Məlum olmayan səbəblərdən Gədəbəyin düşmənlə sərhəddə yerləşən Saratovka, Yenikənd, Çobankənd, Novo-İvanovka, Şahdağ, İnəkboğan, Əyrəvənk, Hacı Qasımlı kəndləri kənarda qalıb.

Gədəbəyin 28 kənddən ibarət olan Şınıx bölgəsində də olduq. Bu bölgənin Qarəvəlli və Hacıallar kəndlərinə sürətlə qaz çəkildiyinin şahidi olduq. Bu işlər başa çatdıqdan sonra rayonun yalnız yuxarıda adlarını çəkdiyimiz kəndləri qaz üzünə həsrət qalan ərazilər olacaq.

❑ **"Yeni Müsavat"ın reportyor qrupu**

YENİ MÜSAVAT
N 131 (7020) 20 iyun 2018

**Xəbər verdiyimiz kimi, ötən gün Bakı metrosunda xoşagəlməz hadisə yaşanıb. Bir qadın qızı geyiminə görə döyməyə cəhd edib. "Yeni Müsavat" xəbər verir ki, əvvəlcə qısa şort geyən qızın oturuşu insanların qınağına səbəb olub və sərnişin oğlanla həmin qız arasında mübahisə baş verib. Daha sonra mübahisəyə orta yaşlı qadın da qoşulub. Qadın qıza əsəbiləşib və onu döyməyə cəhd edib.**



# Azərbaycanda daha bir şortik qalmaqalı

## Problem geyimdədir, yoxsa...

Videokadrlardan görünür ki, mübahisənin alovlanmasına səbəb həm də şortik geyinən qızın danışıq tərzi, işlətdiyi sözlər olub. Bundan başqa, şortik geyinən qız öncə bu cür geyindiyi üçün rahat tövrlər sergiləyərək, oturduğu üçün qınağa məruz qalıb. Ayaqlarını bir-birinin üstünə aşıran və kənardan o qədər də xoş görünməyən qıza ilk qınağı da oradakı oğlanlardan biri edib.

Videonun yayılması ilə ictimai müzakirələr də başlanıb. Cəmiyyət bu mövzu ilə bağlı iki fərqli mövqeni müdafiə edir. Bir qrup hesab edir ki, qızın geyimi onun şəxsi seçimidir və buna heç kim qarışa bilməz. İkinci qrup isə bu geyimin ictimai yerlər üçün uyğun olmadığı, ancaq çimərlik, istirahət mərkəzlərində geyinilməsinin məqbul olduğunu bildirir. Bundan başqa, mübahisəyə qızın geyimindən daha çox, danışıq üslubunun, yaşlı qadına qarşı tövrünün səbəb olduğu da iddialar sırasındadır. Bütün hallarda ortada mübahisə doğuran məqam var.

Qeyd edək ki, buna bənzər olaylar qonşu Türkiyədə zaman-zaman yaşanıb. Ötən il Türkiyənin İstanbul şəhərində üniversitet tələbəsi 21 yaşlı Asena Melisa Sağlama hücum olub. Ərcan Qızılataş adlı şəxs şort geyindiyi üçün Asenanı döyüb və bu sözləri deyib: **"Ramazan ayında belə geyinmək olar? Utanmırsan? Qadınların belə geyinməsi nəfsimi təhrik edir".**

Bir neçə il öncə İsmayıllı rayonunun Lahıc qəsəbəsində insanların şortla gəzməsinə qadağa qoyulması ilə bağlı məlumatlar yayılmışdı. Sosial şəbəkədə paylaşılan elanda qeyd olunmuşdu ki, gələn qonaqlar qəsəbənin adət-ənənələrinə riayət etməli, milli ənənələrə uyğun olmayan paltarlarla - şortla gəzməməlidir. Lakin Lahıc bələdiyyəsi sözügedən məsələ barədə açıqlama verərək, şort geyimi ilə bağlı qadağanını illər öncə ləğv edildiyini qeyd etmişdi.

Amma dünyada bir dress-kod anlayışı da var. Yəni, hara necə geyinmək məsələsi məhz bu dress kod əsasında həll olunur. "Dress-kod" termini Böyük Britaniyada yaranıb və qısa müddətdə bütün dünyaya yayılıb. Müasir dress-kod qayda və standartların bütövlüyü, işgüzar insanın qəbul edilmiş normalarıdır. Geyim seçimində əsas qayda onu vaxta və şəraitə görə seçməkdir.

"White Tie" ifadəsi tərcümədə "ağ qalstuk" deməkdir. Balda, banketdə, diplomatik qəbullarda, cıdırda və toyda ciddi, rəsmi variant hesab edilir. Kişilər: kişilər üçün bu, qara frak, qara şalvar deməkdir. Ağ köynəyi ağ kəpənək qalstuk tamamlamalıdır. Ayaqqabı və corab yalnız qara rəngdə olmalıdır. Qadınlar: məhz belə gecəyə ipəkdən, məxmərdən və ya taftadan paltar geyinmək olar və lazımdır. Açıq dekolte sinə şalla örtülür, bəzək əşyaları ancaq bahalı metallardan olmalıdır, dirsəyə qədər əlcək taxılmalı və kiçik ölçülü çanta götürülməlidir. Saçlar səliqəli şəkildə hündür toplanmalıdır.

"Black Tie", "Cravate Noire", "Tuxedo" - dress-kodu ciddi gecə tədbiri, məsələn, teatr üçün nəzərdə tutulur. Kişilər: cüt və ya tək düyməli smokinq geyilir. Köynək isə ağ rəngdə olmalıdır. Kəpənək qalstuk qara rəngdə. Kişilər üçün vacib atribut enli qurşaq, yəni belbağı hesab edilir. Ayaqqabı da qara rəngdə olmalıdır. Döş cibində yaylıq və butonyör *(yaxaya taxılan qönçəli sancaq)* ola bilər. Qadınlar: donun uzunluğu dizdən yuxarı da ola bilər, döşəməyə qədər çata da bilər. Dəri və ya parçadan incə kəmərli saat və yaxud bahalı daş-qaşlı qolbaq, bilərzik taxmaq olar.

"Black Tie" ifadəsi ilə yanaşı "Invited" sözü yazıla bilər. Bundan başqa dəvətnamədən "Optional", "Creative" sözləri yazıla bilər. Bu, o deməkdir ki, qaydalara riayət etmək vacib deyil, obrazınıza yaradıcı yanaşa bilərsiniz. Qadınlar kişmir sviterlə uzun ipək yubka geyinə, kişilər isə standart olmayan rənglərdən istifadə edə bilərlər.

"Cocktail Attire" ailə şənlikləri, kokteyl və digər mərasimlər üçün münasibdir. Kişilər: qara kostyumsuz və qalstuksuz. Qadınlar: zərif və məlahətli görünməlidirlər. Bu dress-kod həm ofis, həm gecə üçün yararlıdır. Ona görə ki, həm kostyum, həm də kokteyl üçün donlar geyinmək olar. Özünüzlə kiçik ölçülü çantalar götürə, bijuteriya taxa bilərsiniz.

**Formal - rəsmi gecə mərasimi**

"Black Tie" anlayışına çox yaxındır. Lakin bəzən geyimə yaradıcı yanaşmaq, dəbli detallardan istifadə etmək olar.

"Semi Formal" - yarı-rəsmi dress-kod. Kişilər: mərasimdən asılı olaraq pencəyin altından nazik cemper geyinə bilərsiniz. Qadınlar: saat 8-ə kimi şalvarlı kostyumlar və ya dəbdəbəli gündəlik don geyinə bilərsiniz. 8-dən sonra kokteyl üçün donlar, tutalım qara qısa don.

"Casual" Kişilər: bu dress-kod ən demokratikdir. Vəziyyətdən asılı olaraq işgüzar kostyumu köynək, sviter və ya jaketlə geyinə bilərsiniz. Cins, pencək, pambıqdan və ya trikotajdan futbolka geyinə bilərsiniz. Təbii ki, işgüzar xarakterli tədbirə daha ciddi variant seçsəniz yaxşı olar. Qeyri-rəsmi görüşlərə isə keyfiyyətli cins də geyinmək olar. Qadınlar: demək olar ki, hər şey geyinə bilər - gündəlik və ya ofis stilində donlar, həmçinin cins, yubka və s. Aksesuarları düzgün seçməklə obrazınızı tamamlaya bilərsiniz. Əsas odur ki, bayağı deyil, dəbli görünəsiniz.

"A5" ("After five") Bu dress-kod saat 5-dən sonra restoran və ya kafedəki çağırılmış dəvətlər, mərasimlər üçün münasibdir. Kişilər: işgüzar kostyumla rəngli, parlaq köynək geyinə bilərlər. Qadınlar: mütləq gözəl, bayramsayağı, gündəlik geyimdən fərqli geyinməlidirlər.

Şortik isə bütün hallarda iş dünyasında qəbul olunmayan geyim növü sayılır. Şortik ingilis dilində "short" ("qısa") sözünün oxunuşu olaraq türk dilinə girib. Əsas quruluşu baxımdan alt paltarı ilə eyni olmaqla bərabər, ondan fərqi alt paltarı məqsədli yox, gündəlik həyatda üst geyim məqsədilə də istifadə edilir. Şortiklər həm gündəlik geyim forması, həm də idman geyim forması kimi istifadə edilir. Gündəlik həyatda üst geyim məqsədli istifadə edilənlər isə beldən kəmərlidir. Bermuda şortik kimi özəl formaları da var.

1932-ci ildə ingilis tennisçi Henri Banni Ostin ilk dəfə qısa şortla tennis kortuna çıxaraq bir ilki gerçəkləşdirib.

**Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**




## Bakıda bu yollar bağlanır

**26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100-cü ildönümü münasibətilə keçiriləcək hərbi paradın təlim-məşqlərinə hazırlıq məqsədilə paytaxtın bəzi yerlərində avtomobillərin hərəkətinə məhdudiyyət qoyulacaq.**

Lent.az-a daxil olan məlumata görə, təlim-məşqlə əlaqədar olaraq iyunun 24-dən etibarən paytaxtın Neftçilər prospekti boyu Azadlıq meydanı istiqamətində avtomobillərin hərəkəti məhdudlaşdırılacaq. Yeni avtomobillərin hərəkəti Üzeyir Hacıbəyov küçəsi ilə hərəkətin əksinə olaraq Cavanşir körpüsündən keçməklə Yusif Səfərov küçəsi istiqamətinə müəyyənləşdirilir.

Həmçinin Azadlıq prospektinin Zərifə Əliyeva küçəsi ilə kəsişməsindən hərəkət yalnız sağa - Rəşid Behbudov küçəsi istiqamətinə, eləcə də Puşkin, Üzeyir Hacıbəyov küçələri kəsişməsindən hərəkət sağa - Azadlıq prospekti istiqamətində, eyni zamanda Neftçilər prospektinin Rəşid Behbudov küçəsi ilə sola, yəni 28 May küçəsi istiqamətində müəyyənləşdirilir.

Sürücülərə qeyd edilən istiqamət üzrə şəxsi avtomobillərdən mümkün qədər az istifadə edilməsi və ictimai nəqliyyata üstünlük verməli tövsiyə olunur.



## Temperatur yüksəlir

**İyunun 20-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu, yağmursuz hava şəraiti müşahidə olunacaq. Şimal küləyi əsəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosundan lent.az-a daxil olan məlumata görə, havanın temperaturu gecə 18-21°, gündüz 27-32° isti olacaq.

Bakıda gecə 19-21° isti, gündüz 29-31° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu təşkil edəcək.

Nisbi rütubət gecə 65-75 %, gündüz 40-50 % olacaq.

Abşeron çimərliklərində gözlənilən hava şəraiti:

Şimal çimərliklərində- Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulbada şimal istiqamətli külək əsəcək. Dəniz suyunun temperaturu 21-22° isti təşkil edəcək.

Cənub çimərliklərində-Türkan, Hövsan, Sahil, Şıxda da şimal istiqamətli külək əsəcək.

Dəniz suyunun temperaturu 22-23° isti təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin səhər və gündüz Böyük və Kiçik Qafqazın bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 16-21° isti, gündüz 31-36° isti, dağlarda gecə 9-13° isti, gündüz 18-23° isti təşkil edəcək.



# Suares, özünü göstər!










## Bu gün A və B qrupunda ikinci turun oyunları keçiriləcək





**Bu gün futbol üzrə dünya çempionatında A və B qrupunda ikinci turun oyunları keçiriləcək. Saat 16:00-da B qrupunda Portuqaliya - Mərakeş qarşılaşması başlayacaq. Saat 19:00-da isə A qrupunda Uruqvay - Səudiyyə Ərəbistanı qarşılaşacaq. Günün son oyununda B qrupundakı İran - İspaniya komandaları qarşılaşacaq ki, bu matç da saat 22:00-da olacaq.**

### Uruqvayla ölüvay Səudiyyə Ərəbistanı

Əvvəl A qrupundakı görüş barədə danışaq. Məlumdur ki, ilk turda Uruqvay son dəqiqədə Misirin qapısına yol tapdı və vacib 3 xal qazandı. İlk oyunda Misir arzu edilən oyun sərgiləyə bilmədi, amma ilk dünya çempionu Uruqvay da xüsusi fərqlənmədi. Əsasən də hücum xəttində Edinson Kavani ilə Luis Suaresin oyunu alınmadı.

Uruqvay indiyədək Səudiyyə Ərəbistanı ilə 2 dəfə qarşılaşıb. İlk oyun 2002-ci ildə Səudiyyə Ərəbistanın meydanında keçirilib və ərəblər bu oyunda 3:2 hesabı ilə qalib gəliblər. Daha bir qarşılaşmaya yenə Səudiyyə Ərəbistanı ev sahibliyi edib. 2014-cü ildə keçirilən yoldaşlıq görüşündə oyun 1:1 hesabı ilə başa çatıb.

Uruqvay bu görüşün favoriti hesab olunur. Amma bu cənubi amerikalıların üstün oyunundan



daha çox Səudiyyə Ərəbistanının zəif çıxışı ilə daha çox əlaqəlidir. İlk tur arxada qaldığı üçün əminliklə demək olar ki, Səudiyyə millisi bu mundialın ən zəif komandasıdır. FİFA sıralamasında 70-ci yerdə olan Səudiyyə millisi artıq 2006-cı ildən sonra ilk dəfə yenidən DÇ-də iştirak hüququ qazanıb. Məlumdur ki, ərəblər DÇ-yə vəsiqə aldıqdan sonra baş məşqçi Bert van Marvey komandadan ayrıldı. Onun yerinə gətirilən argentinalı Edqardo Bausa da tezliklə postundan getdi. Nəhayət, bu il Səudiyyə Ərəbistanı millisi Argentina kökənli Xuan Antonio Piççi ilə anlaşdı. Bu "get-gəl" isə millinin oyununa ciddi təsir edib ki, bunu da ilk oyun təsdiqlədi. Səudiyyə Ərəbistanı millisi bu mundiala heç bir iddiası olmadan gəlib və ilk oyuna Putinlə baxan ərəb şahzadəsində xüsusi məyusluq yox idi. Bu səbəbdən də Uruqvay çox zəhmət çəkmədən rəqiblərini evə göndərə bilər. Oyunu Fransadan olan hakimlər briqadası idarə edəcək. Kleman Turpen, Nikolas Danos, Kiril Qrinqor...

### Ronaldo İspaniya hökumətinə necə 3 "qol" vurdu

Saat 16:00-da B qrupunda başlayacaq Portuqaliya - Mərakeş qarşılaşması da maraq doğurur. İlk turda İranla qarşılaşmada Mərakeş millisinin oyunçusu son dəqiqələrdə öz qapısına qol vurmasaydı, hesab qolsuz bərabərliklə bitəcəkdi. İran indi bu qrupun lideridir və həm İspaniya, həm Portuqaliya bu durumdan heç də məmnun deyillər. Bu baxımdan bugünkü qarşılaşmalar çox mühüm əhəmiyyət kəsb edir.

Portuqaliya ilk oyunda Ronaldonun qəzəbi sayəsində İspaniyadan bir xal ala bildi. Məlumdur ki, İspaniya hökuməti bir neçə aydır ki, Ronaldonun vergidən yayınmasını araşdırır. 33 yaşlı portuqaliyalı futbolçu 14.7 milyon avro miqdarında vergidən yayınmaqda ittiham edilirdi. Ona bir neçə variant təklif edilmişdi ki, onların sırasında həbs və külli miqdarda cərimə də vardı. Sonda "Real" Madrid klubunun hücumçusu isə İspaniya vergi rəsmiləri ilə razılıq əldə edərək, iki il həbs cəzası daxil olmaqla, 18.8 milyon avro (21.8 milyon dollar) cərimə ödəməyə razılıq verdi. Buna baxmayaraq, Ronaldonun cəzasını həbsxanada keçirməyəcəyi gözlənilir. Belə ki, İspaniya qanunlarına əsasən, iki ildən az həbs müddətini ilk dəfə alan şəxs cəzasını şərti çəkə bilər. Məhz bu oyun ərəfəsi İspaniyanın nüfuzlu nəşrləri Ronaldo haqda bu informasiyanı dövriyyəyə buraxdılar. Ronaldonu illərdir yaxşı hücumçu kimi bəyənmirəm və ona görə klub oyunlarına da baxmıram. İndi də qərəzli görünsə də, həmin gün Ronaldo sanki İspaniya hökumətindən qəzəbini çıxırdı. Onun oyun bitəndə gözündə heç bir sevinc yox idi, əksinə, nifrət vardı. Sanki adam üç qolu İspaniya hökumətinin acığına vurduğunu bəyan etmək istəyirdi. Ruslar da bunu sezdilər və hətta canlı efirdən dedilər də. Nə isə... Bu, bir tamaşaçının yorumudur, Ronaldonu sevənlər onu sevməkdə davam etsinlər...

Portuqaliya Mərakeşlə yalnız bir dəfə qarşılaşıb. Bu, 1986-cı il mundialında olub. Onlar bir qrupda mübarizə aparıblar və qarşılaşmanı Afrika təmsilçiləri 3:1 hesabı ilə qazanıb. FİFA reytinqində Portuqaliya 4-cü sırada, bu axşamkı rəqibləri isə 41-ci yerdədir. Mərakeş ilk oyunda yaxşı təsir bağışladı, güclü İran müdafiəsini yara bilirdi. Son 10 oyunda Mərakeş millisi yalnız iki dəfə uduzub ki, bunun biri İran yığmasına talesiz məğlubiyyətdir. Portuqaliya isə son 10 oyunun 7-də heç-heçə edib, üç görüşdə isə qalib gəlib.



Portuqaliya millisinin forvardı Andre Silva deyib ki, Mərakeş millisinin öz qapısına qol vuraraq məğlub olması istənilən komandanın başına gələ bilər. "Mərakeş oyuna qələbə üçün çıxacaq. Onların Avropa klublarında oynayan yaxşı futbolçuları var. Bu, çətin oyun olacaq, amma biz qalib gəlmək üçün çalışacağıq". Statistiklər üçün qeyd edək ki, oyunu Mark Qeyger (ABŞ), Co Fletçer (Kanada), Frank Anderson (ABŞ), Sergey Karasyov (Rusiya) idarə edəcəklər.

### İran üçün mühüm görüş

İran-İspaniya qarşılaşması da bu qrupda mühüm hesab edilir. Qeyd edək ki, Asiya təmsilçisi ilk dəfə İspaniya ilə qarşılaşacaq. İran millisi 2014-ci il mundialında ilk oyunda Nigeriya ilə qolsuz bərabərliyə nail olmuşdu ki, bu o zaman cənub qonşularımızın uğuru hesab olunurdu. Sonra Argentinaya minimalı hesabla (1:0) məğlub olan iranlılar qrup mərhələsinin son oyununda Bosniya və Hersoqovina yığması qarşısında məğlubiyyətdən (1:3) yaxa qurtara bilmədilər.

Bu dəfə isə İran millisi iki nəhəng futbol ölkəsinin yer aldığı qrupda ilk turu lider kimi qapadıb. 2011-ci ildən millini çalışdıran Karluş Keyruş İranı əsasən müdafiə futbolunda oynadır və çətin ki, bu gün bu taktika dəyişsin. İran yığmasının seçmə mərhələdə keçirdiyi 8 oyunda qapılarından yalnız bir top buraxması təsadüfi deyil. Məlumdur ki, Karluş Keyruş portuqaliyalıdır və 2008 - 2010-cu illərdə Portuqaliya millisinə rəhbərlik edib. O, şübhəsiz ki, İspaniya millisinin də ilk oyunda zəif tərəflərini gördü. İspaniya müdafiəsi ilk qarşılaşmada zəif göründü ki, bu gün əks-hücumlara üstünlük verən İran bundan istifadə edə bilər. Üstəlik, İspaniyanın David De Xea kimi "qapıçısı" varsa...

İspaniya isə Xuan Lopeteqinin istefasından sonra da taktiki planda heç nəyi dəyişməyib. Fernando Yerroya adamın yazığı gəlir, oyunçularla dost kimi davranır, onların boynuna sarılar və sair. **"Biz futbolçularımızla fəxr edə bilərik. Onlar iki ildə çox inkişaf edən, necə oynamaq lazım olduğunu bilən komandaya qarşı çıxış etdilər"** deyə, o oyundan sonra bildirib.

O, oyun zamanı kobud səhvi ilə yadda qalan qapıçı David De Xea ilə bağlı fikirlərini də bildirib: "Biz komandayıq. Futbolçularımızdan şübhə etmirik. Bir ailəyik. Hansısa oyuna görə futbolçumuzu kənarda qoymayacağıq. Dieqo Kosta əla oyun keçirib, iki qol vurdu. Ancaq heç kimi ailəmizdən ayırmırıq. Komanda uğur qazanırsa, burada 23 futbolçunun hər birinin əməyi var". Bu gün İran İspaniya ilə heç-heçə oynamağa çalışacaq. Bu isə İspaniyanı çox çıxılmaz dura sala da bilər. Oyunu Andresum Kunya, Nicolas Taran, Maurisio Espinozadan ibarət uruqvaylılar idarə edəcək.

**❑ Nazim SABİROĞLU, "Yeni Müsavat"**









YENİ MÜSAVAT

Son səhifə

N 131 (7020) 20 iyun 2018



## Pişik 120 kilometr məsafəni necə qət etdi?

**Böyük Britaniyada evsiz pişik sürücüsünün xəbəri olmadan bir maşında 120 kilometr məsafə gedib. Lenta.ru saytının xəbərinə görə, sükan arxasında olan Stiven Keyn səfərin ikinci günü maşında pişik olduğunu fərq edib. "Pişiyin bəxti gətirdi ki, mən onu fərq etdim. Mən anlamıram ki, bu pişik necə maşının o dar yerinə girib. Bu hadisə harada gəldi baş verə bilərdi". Bunu da Keyn jurnalistlərə açıqlamasında bildirib.**

O, eyni zamanda hakimiyyəti heyvanları amansız münasibətdən qorumağa çağırıb. Sürücünün maşınında, gizli bir yerdə özünə yer edən pişiyi çıxarmaq üçün avtomexanik çağırmaq lazım gəlib. Sonuncu maşının işıqlarını və bamperini çıxarandan sonra pişiyi xulas ediblər. Sahibsiz Heyvanlar Cəmiyyətinin nümayəndəsi Lüsi Brennan isə deyib ki, pişiyi ordan çıxaranda çox pis qoxurdu və ac idi. O, eyni zamanda qeyd edib ki, pişiyin quyruğunu amputasiya etmək zorunda qalıblar. Belə ki, onun quyruğu ciddi zədə almışdı. Keyt zolaqlı pişiyə Ford ləqəbi verib. Buna səbəb pişiyin Ford markalı maşında tapılması olub. Sürücünün qardaşı isə deyib ki, yaxın vaxtlarda pişiyin sahibi ortaya çıxmasa, heyvanı özü götürmək istəyir.

# Planetin ən yaşlı oranqutanı ölüb

**Avstraliyada planetin ən yaşlı oranqutan meymunu ölüb. Bu haqda lenta.ru saytı BBC-yə istinadən xəbər verib. Nəşrin xəbərinə görə, heyvanın 62 yaşı olub. Puan adlı heyvanı yaşına görə məruz qaldığı xəstəliklərə görə evtanaziya ediblər. Pertsk zooparkının əməkdaşları "yaşlı möcüzə"yə 1968-ci ildən baxırdılar. Meymunun özündən sonra 54 davamçısı var.**



Puan rəsmi olaraq 2016-cı ildə dünyanın ən yaşlı oranqutanı elan edilib. Müvafiq faktlar Ginnesin Rekordlar Kitabında öz əksini tapıb. Mütəxəssislər ehtimal edir ki, Puan 1956-cı ildə Sumatra cunqlisində dünyaya gəlib. Onun nəslini davam edən meymunlar Amerika, Avropa və dünyanın müxtəlif yerlərində var. Vəhşi təbiətin ümumdünya fondundakı məlumatlara görə, Yer üzündə 14.6 min Sumatra oranqutanı var. Vəhşi təbiətdə onlar nadir hallarda 50 yaşa qədər yaşayırlar.

# 65 komponentdən ibarət səhər yeməyini heç kim yemir

**İngiltərənin Donkaster şəhərindəki bir kafe ziyarətçilərinə nəhəng ingilis səhər yeməyi təklif edib. Səhər yeməyi 65 komponentdən ibarət olub. Bu barədə lenta.ru saytı xəbər verib. "Terminator2" adlanan səhər yeməyi ingilis səhər yeməyinin 8 ənənəvi komponentini özündə ehtiva edir. Bundan başqa, bekon, sosiska və yumurta, eləcə də böyük miqdarda lobya və tost bu səhər yeməyinə daxildir. Böyük miqdarda olmasına və tərkibindəki zənginliyə baxmayaraq, səhər yeməyinin qiyməti 15 funt sterlinq olub.**

Kafedə daha öncə "Terminator" adını daşıyan səhər yeməyi olsa da, ziyarətçilər ondan tez əl çəkiblər. Səhər yeməyinin daha kompakt versiyasının məbləği 7.95 funt sterlihq olub və dörd komponentdən təşkil edilib. Bu günə qədər "Terminator2" adını daşıyan səhər yeməyini sifariş edən heç bir müştəri onu sona qədər yeyə bilməyib. Yeməyi sona qədər yeyə bilən insana fotosunun şərəf lövhəsinə vurulması vədi verilib.

İyunun əvvəlində Amerikanın Luiziana ştatında xərçəng yeyilməsi üzrə dünya çempionatı keçirilmişdi.




## Evi qarət etdi, sonra da pəncərəsinə ilişdi

**Böyük Britaniyada bir oğru qarət etdiyi evin pəncərəsinə ilişib. Bu barədə BBC News xəbər verir. İnsident Böyük Mançester qraflığındakı Redkliff şəhərində baş verib. Mağazadan qayıdan yaşlı qadın fərq edib ki, onun ikinci mərtəbədə yerləşən mənzilindəki ayaqyolunun pəncərəsi açıqdır və oradan tanımadığı bir kişi sallanır. Hadisə yerinə çağırılan polislər görüblər ki, hündürlüyü 4.5 metr olan balkondan köməksiz bir oğru sallanır: "Biz xeyli güldük. Amma evin sahibəsi bu olay qarşısında şok olmuşdu". Bunu jurnalistlərə açıqlamasında serjant Riçard Qarlend bildirdi.**

Yanğınsöndürənlərə kişini pəncərədən düşürüb, asayiş keşikçilərinə təhvil vermək üçün 20 dədiqə bəs etdi. Yerə düşəndə 47 yaşlı Şon Kroşou etiraf etdi ki, sözügedən mənzilə qarət məqsədilə daxil olmuşdu. Məhkəmə onu 2 il 5 ay müddətinə həbs cəzasına məhkum etdi. Hadisə Redkliff polisinin rəsmi twitter səhifəsində sözügedən fotonu paylaşmasından sonra mətbuatda geniş səs-küy yaradıb.




**QOÇ - Daha çox fəaliyyətlə məşğul olmağınız məsləhət görülür. İndi sizin ən məhsuldar dövrünüz olduğu üçün boş dayanmağa lüzum yoxdur. Doğmalarınızla münasibətlərə obyektiv yanaşın.**

**BUĞA - O qədər də səmərəli vaxt deyil. Yaxşı olar ki, riskli işlərinizi, xüsusən də işgüzar görüşlərinizi təxirə salasınız. İş günü olsa da, vaxtınızı daha çox istirahətə həsr edin.**

**ƏKİZLƏR - Bürcünüz üçün ən uğurlu vaxt günün birinci yarısıdır. Göstərdiyimiz ərəfədə ağıllı şəkildə risk etmək sizə uğur gətirə bilər. Gün ərzində şəxsi büdcənizi artırmaq imkanınız da olacaq.**

**XƏRÇƏNG - Bütün sağlam sahələrdə mövqelərinizi qorumaq və möhkəmləndirmək başlıca vəzifəniz olmalıdı. Amma bütün vacib işlərinizi saat 18-ə qədər yekunlaşdırın ki, sonrakı ərəfənin düşərliliyini hiss edəsiniz.**

**ŞİR - Bəri başdan nəzərinizə çatdıraq ki, bu təqvimdə əsəblərinizi maksimum qorumalısınız. Ünsiyyətdə olduğunuz hər kəslə mehriban davranın. Yalnız gündəlik işlərinizlə məşğul olun.**

**QIZ - Əgər səhhətinizdə problem yoxdursa, qorxmağa dəyməz. Ən azı ona görə ki, gün ərzində rastlaşdığınız olaylar fərəh hissinizi artıracaq. Axşam öz evinizdə gecələməyiniz tövsiyə olunur.**

**TƏRƏZİ - Yaxşı olar ki, bu gün özünüzü çox yormayasınız. Ən azı ona görə ki, əyləncə və gəzintilər üçün ayda-ildə bir dəfə əlinizə fürsət düşəcək. Buna baxmayaraq, uzaq yola çıxmaq məsləhət deyil.**

**ƏQRƏB - Adi bir təqvim yaşayacaqsınız. Hansısa qeyri-adilik gözləməyə dəyməz. Yalnız nahar ərəfəsində xırda mübahisələriniz mümkündür. Böyüklərin məsləhətini qulaqardına vurmayın.**

**OXATAN - Planetlərin bürcünüzdəki neqativ düzülüşü ümumi ovqatınızda gərginlik yaratsa da, bu, yalnız saat 15-ə qədər davam edəcək. Sonrakı müddətdə isə maraqlı hadisələrin şahidi olacaqsınız.**

**OĞLAQ - Yeni əlaqə və tanışlıq üçün səmərəli vaxtdır. Atacağınız addımları dönə-dönə ölçüb-biçin. Yorulmaqdan qorxmayın. Çünki zəhmətinizin bəhrəsini yaxın vaxtlarda görəcəksiniz.**

**SUTÖKƏN - Əsas vaxtınızı fəaliyyət amilinə həsr edin. Çünki ulduzlar bu təqvimdə daha çox məlum sahədə sizə enerji bəxş edəcək. Saat 18-21 aralığında isə qonaq getmək sizə rahatlıq gətirəcək.**

**BALIQLAR - Yeni işlərə başlamaq, perspektivli sövdələşmələr aparmaq üçün ideal ərəfədir. Çalışın ki, bu fürsətdən maksimum yararlanasınız. Aldığınız hər bir dəvətə razılıq verin.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Anası ölən quzunu evdə saxlayırlar



**Türkiyənin Manisa şəhərində heyvansevər bir cütlük anası ölən bir quzuya evdə baxmağa başlayıb. Əmziklə bəslənən, altına pampers qoyulan quzunun şəkilləri sosial şəbəkədə paylaşılınca böyük marağa səbəb oldu. Quzu hətta evin içində balaca körpə geyimləri də geyinir. Quzunu evdə saxlayan cütlüyün uşaqları da altına pampers bağlanan, oyuncaq dovşan ilə oynayıb, evdə gəzən quzunun şəkillərini çəkib sosial media vasitəsilə paylaşırlar. Evdə saxlanan quzunun şəkli bir çox insanın diqqətini çəkdi. Heyvansevər cütlük əmzikli butulka ilə bəslədikləri quzuya "Xallı" adını verdilər.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.